Xalidə Həmidova, Aidə Musayeva

# Bədii təfəkkürün inkişafı

*Orta (3-4 yaş) qrup üçün*

# Təsviri fəaliyyət

*(rəsm, yapma, quraşdırma, kəsib-yapışdırma)*

**Məktəbəqədər təhsil proqramı (kurikulum) əsasında**

# MƏŞĞƏLƏLƏRİ

Nərgiz NƏŞRİYYATI

BAKI-2024

**Elmi məsləhətçilər:**

**Müseyib İlyasov**
Pedaqoji elmlər doktoru, professor

**Şəhla Əliyeva**
Pedaqoji elmlər doktoru, professor

**Rəyçilər:**

**Laləzar Cəfərova**
Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Şərafət Baxışova**
Pedaqoji elmlər doktoru

**Nailə Hüseynova**
Pedaqoji elmlər doktoru

**Vüsalə Əliyeva**
Pedaqogika üzrə fəlsəfə doktoru

**Redaktor:**

**Hidayət Musabəyli**
AYB-nin üzvü, Akademik M.Mehdizadə adına və "Qızıl Qələm" mükafatları laureatı, Respublikanın Təhsil Əlaçısı

**Xalidə Həmidova, Aidə Musayeva.** Bədii təfəkkürün inkişafı. Təsviri fəaliyyət məşğələləri. *Məktəbəqədər təhsil proqramı (kurikulum) əsasında*. - Bakı, "Nərgiz" nəşriyyatı, 2024. 128 səh.

İSBN 978-99-52-37-233-3

$H\frac{742000000}{079} - 961$

© "Nərgiz", 2024

# *Bədii təfəkkürün inkişafı məşğələləri*



## MƏŞĞƏLƏ 1

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağılları danışır.
**Mövzu:** "Dərman" hekayəsi.
**Məqsəd:** Hekayənin məzmununu şəkillərinə baxaraq danışır.
**İnteqrasiya: 2.1.2.** Əşyalar və sadə süjetli şəkillər üzrə danışır.
**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.
**İş forması:** Qruplarla iş.
**Üsullar:** Əqli hücum, söz assosiyası, sual-cavab, müzakirə.
**Resurslar:** Hekayəyə aid şəkillər, oyuncaqlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar qrup otağında dağılmış oyuncaqları yerdən yığmalarını istəyir. Tərbiyəçi-müəllim soruşur: Uşaqlar, evdə oyuncaqları kim yığışdırır?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Dərman" hekayəsini şəkil üzrə uşaqlara danışır. Uşaqlara hekayəyə aid suallar verilir.

**İdman dəqiqəsi:** Musiqili ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqların qarşısına hekayəyə aid 4 yerə ayrılmış şəkilləri qoyur. Şəkilləri birləşdirmələrini tapşırır. Uşaqlar şəkilləri birləşdirərək hekayə haqqında danışırlar.

## MƏŞĞƏLƏ 2

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.
**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.
**Mövzu:** "Gülümsəyən çiçəklər" hekayəsi (Günel Almaz).
**Məqsəd:** "Gülümsəyən çiçəklər" hekayəsinin məzmununu şəkillərə əsasən danışır.
**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.
**3.1.1.** Sadə təsvirlər çəkir.
**4.2.3.** Problemin həllində iştirak edir.
**İş forması:** Fərdi iş, cütlərlə iş, qruplarla iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, müzakirə, nağıletmə.

**Resurslar:** "Gülümsəyən çiçəklər" hekayəsi, A4 kağızı, boyalar, şəkillər və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara təbiət guşəsindəki gülləri sulamağı təklif edir. Uşaqlardan bitkiləri, gülləri sevdiklərini soruşur. Hansı güllərin adlarını bildiklərini xəbər alır. Tərbiyəçi-müəllim uşaqlara güllərə qulluq qaydasını öyrədir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara "Gülümsəyən güllər" hekayəsini danışır. Uşaqlara hekayəyə aid suallar verilir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.



**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları qruplara ayırır.

*I qrup:* Hekayədə təsvir olunan gül rəsmi çəkib rəngləmək və rəsmi nağıla əsasən danışır.

*II qrup:* Hekayədə təsvir olunan gülləri verilmiş nümunələr üzrə seçib yığmaq və onun haqqında danışmaq.

*III qrup:* Hekayədə təsvir olunan güllərin adını sadalamaq və onlar haqqında danışmaq.

*IV qrup:* Hekayəyə aid şəkillərin hissələrində təsvir olunanı danışmaq.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 3

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual-cavablarla nümayiş etdirir.

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.

**Mövzu:** "Pişik və gəlincik" nağılı.

**Məqsəd:** "Pişik və gəlincik" nağılı haqqında verilən suallara cavab verir. "Pişik və gəlincik" nağılını danışır.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**3.1.4.** Sadə yapma (bir, üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab, tap-tapmaca və s.

**Resurslar:** Şəkillər, plastilin, oyuncaqlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara bir qutu göstərir: Uşaqlar, bu qutunun içində bir ev heyvanının fiquru var. Mən onun haqqında sizə bir-iki söz deyəcəyəm. Siz bu qutunun içində hansı heyvan fiqurunun olduğunu tapın.

Tərbiyəçi-müəllim pişiyə aid bir-iki açar söz verir. Südü çox sevir. Uşaqların dostudur və s.

Uşaqlar pişik olduğunu deyirlər.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara pişiklərin uşaqları, uşaqların da pişikləri sevdiyinə aid bir nağıl danışacağını deyir.

"Pişik və gəlincik" nağılını danışır. Uşaqlarla nağıla aid sual-cavab edir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında idman dəqiqəsi.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara nağıl personajları olan gəlincik və pişiyi plastilindən düzəltməyi təklif edir. Uşaqlar personajları tərbiyəçi-müəllimin köməyi ilə düzəldirlər. Tərbiyəçi-müəllim yenidən nağıla aid suallar verir və uşaqlar artıq düzəltdikləri personajlardan istifadə edərək nağılı danışırlar.

Məşğələ yekunlaşır.

# MƏŞĞƏLƏ 4

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.

**Mövzu:** "Dovşanın nağıl kitabı" nağılı.

**Məqsəd:** Nağıl haqqında fikirlərini suallara cavabları ilə nümayiş etdirir. Nağılı şəkillərin məzmununa əsasən danışır.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**4.1.1.** Sadə ünsiyyət qaydalarına əməl edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, müzakirə, sujetli-rollu oyunlar, nağıletmə.

**Resurslar:** Nağıl personajları.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim müxtəlif heyvanların oyuncaqlarını uşaqlara göstərir və onların içindən çöl heyvanlarını tapmalarını deyir. Çöl heyvanları haqqında uşaqlardan bildiklərini soruşur.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Dovşanın nağıl kitabı" nağılını kukla teatrı təşkil edərək uşaqlara danışır. Nağıl bitdikdən sonra uşaqlarla sual-cavab edərək nağılı dərindən dərk etmələrinə, yadda saxlamalarına çalışır.

**İdman dəqiqəsi:** Ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim nağılın hər bir hissəsini uşaqların kuklalarla danışmasını təklif edir. Kuklaları uşaqlara verərək nağıldan bir-iki cümlə demələrini istəyir.

Məşğələni sonlandırır.



## MƏŞĞƏLƏ 5

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.

**2.2.2.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** "Zərərli mikrob" haqqında nağıl (Lavrençenko Yuliya).

**Məqsəd:** Şəkillərin məzmununa əsasən hekayəni iki-dörd sözdən ibarət cümlələr qurub-danışır.

**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək, əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetlərdən istifadə etmək) bildiyini nümayiş etdirmək.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, müzakirə, suallar, nağıletmə.

**Resurslar:** Sabun, su, dəsmal, meyvələr və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlarla tədqiqat aparır. Qaba su qoyur, suyun üstünə bir azca toz bibər səpir. Suya bir az sabunlu su tökür. Sabun suya dəyən kimi toz bibərlər suyun kənarına yığılır və su təmizlənir. Tərbiyəçi-müəllim uşaqlara mikrobun zərərindən danışır.

**Dərketmə mərhələsi:** "Zərərli mikrob" haqqında nağılı uşaqlara danışır. Uşaqlarla sual-cavab edir.

**İdman dəqiqəsi:** Musiqili ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara oyun oynamağı təklif edir. Lövhəyə və stolun üstünə şəkillər, müxtəlif oyuncaqlar qoyur.

*I qrup* uşaqlara zərərli qidaları sola, xeyirli, vitaminli qidaları sağa yığmalarını və hekayəni iki-dörd sözdən ibarət cümlələr qurub-danışmağı təklif edir.

*II qrup* uşaqlara təmizliyə aid olan şəkilləri seçib lövhəyə yapışdırmağı və hekayəni iki-dörd sözdən ibarət cümlələr qurub-danışmağı təklif edir.

## MƏŞĞƏLƏ 6

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.
**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.
**Mövzu:** "Günəbaxanlar" hekayəsi (İsmayıl Bilgin).
**Məqsəd:** "Günəbaxanlar" hekayəsinin şəkillərinə baxaraq danışır.
**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.
**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.
**3.1.1.** Sadə təsvirlər çəkir.
**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.
**Üsullar:** Əqli hücum, müzakirə, suallar, nağıletmə və s.
**Resurslar:** Hekayəyə aid şəkillər, karandaşlar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlardan hava haqqında soruşur: Bizi nə isidir? Günəş nə rəngdədir, hansı formadadır? Uşaqlar, günəşə hansı bitki bənzəyir? Günəbaxan bitkisi görmüsünüzmü?

**Dərketmə mərhələsi:** "Günəbaxanlar" hekayəsinin şəkillərini göstərərək tərbiyəçi-müəllim onun məzmununu uşaqlara oxuyur. Sual-cavab edir. Uşaqlar sadə cümlələrlə hekayəni danışır.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında idman hərəkətləri.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara günəbaxan və günəş şəkilləri çəkmələrini təklif edir.

*I qrup:* günəş şəkli çəkmək və hekayəni şəkillərə baxaraq danışmaq;
*II qrup:* günəbaxan şəkli çəkmək və hekayəni şəkillərə baxaraq danışmaq.
Günəbaxan və günəşin fərqini şəkillərə baxaraq sadalamaq təklif olunur.
Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 7

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.
**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.
**Mövzu:** "Çil toyuq və siçan balaları" nağılı.
**Məqsəd:** Nağılı dinləyir və suallar verir. Şəkillərin məzmununa əsasən nağılı danışır.

**İnteqrasiya: 2.1.4.** Əşyalar və sadə süjetli şəkillər üzrə danışır.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir.

**3.2.2.** Kollektiv əməkdə (qrup otağının səliqəyə salınması, həyətyanı sahədə işləmək və s.) iştirak edir və tapşırıqları yerinə yetirir.

**İş forması:** Fərdi iş, kollektiv iş və s.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə, sujetli (rollu) oyunlar.

**Resurslar:** Nağıl personalları maketləri, plastilin, şəkillər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim qrup otağındakı rəfləri səliqəyə salaraq deyir, uşaqlar, mənə kim bu kitab rəfini səliqəyə salmaqda köməklik göstərmək istəyər? Evdə valideynlərinizə kömək edirsinizmi? Uşaqlar, gəlin sizə bu barədə maraqlı bir nağıl danışım.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Çil toyuq və siçan balaları"nın personajlarının maketlərini göstərə-göstərə nağılı uşaqlara danışır. Nağılı daha dərindən dərk etmələri üçün uşaqlarla nağılı müzakirə edir, sual-cavab edir. Maketləri uşaqlara verərək onlara nağıla aid cümlələri təkrar etdirir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında idman hərəkətləri.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara nağıla aid bir-iki sual verir. Sonra soruşur: uşaqlar, çil toyuq nə bişirdi? Ona hansı heyvanlar köməklik göstərdi? Bəs hansı heyvanlar kömək etmədi?

Gəlin biz də plastilindən kökələr düzəldək.

Uşaqlar kökə düzəldirlər və nağıldan yadda qalanı hissə-hissə danışırlar. Tərbiyəçi-müəllim uşaqların işlərini dəyərləndirir və məşğələni yekunlaşdırır.

## MƏŞĞƏLƏ 8

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** "Yaxşılıq etmək" nağılı (Valentina Oseyeva).

**Məqsəd:** Nağılı dinləyir və şəkil üzrə iki-dörd sözdən ibarət sadə cümlələrlə danışır.

**İnteqrasiya: 4.1.1.** Sadə ünsiyyət qaydalarına əməl edir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**4.3.2.** Böyüklərə və həmyaşıdlarına qarşı xeyirxahlıq, qarşılıqlı kömək, dostluq, diqqət nümayiş etdirmək.

**İş forması:** Fərdi iş, qruplarla iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, rollu-sujetli oyunlar, nağıletmə.

**Resurslar:** Nağıla aid şəkillər, videorolik və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, bağçaya gedərkən yolda kimləri görürsünüz? Cavan, yaşlı, orta yaşlı insanlar. Siz heç yaşlı insanlara yardım etmisinizmi? Avtobusda yaşlılara yer vermisinizmi? Yaxşılıq etməyi sevirsinizmi? Kimlər hansı yaxşılığı edib?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim şəkillər üzrə "Yaxşılıq etmək" nağılını uşaqlara danışır.

Uşaqlarla sorğu-sual edir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında idman hərəkətləri.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla "Yaxşılıq etmək" nağılı üzrə rollu-sujetli oyun hazırlayır.



## MƏŞĞƏLƏ 9

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** "Qarağacın kölgəsi" hekayə (Əli Səmədli).

**Məqsəd:** Hekayəni dinləyir və danışır. Hekayəni danışarkən iki-dörd sözdən ibarət sadə cümlələr qurur.

**İnteqrasiya: 2.1.6.** Gündəlik rast gəldiyi ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Fərdi iş, kollektiv iş və s.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, suallar, nağıletmə.

**Resurslar:** Hekayəyə aid şəkillər və müxtəlif əşyalar.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim qrup otağında kölgə yaratmaq üçün şərait yaradır. Hər hansı bir əşyanın kölgəsini yaradır. Uşaqlardan soruşur: Uşaqlar, bu nədir? Kim bunun adını bilir?

Kölgə bəzən bizdən uzun, bəzən enli, bəzən qısa olur.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Qarağacın kölgəsi" hekayəsini danışır. Şəkilləri göstərir. Hekayəyə aid suallar verir. Bitkilərin həyatımızdakı rolundan danışır.

**İdman dəqiqəsi:** Ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nağılda sujet olan şəkli rəngləyirlər. Rənglədikləri şəkillər əsasında iki-dörd sözdən ibarət sadə cümlələr qurur. Məşğələ sonlandırılır.

## MƏŞĞƏLƏ 10

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.

**Mövzu:** "Düyməcik" nağılı.

**Məqsəd:** Nağıl haqqında fikirlərini cavabları ilə nümayiş etdirir. Nağılı şəkillərinə baxaraq danışır.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.
**3.1.3.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.
**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.
**Üsullar:** Əqli hücum, suallar, müzakirə, nağıletmə və s.
**Resurslar:** Şəkillər, plastilin, oyuncaqlar və s.

**Məşğələnin gedişi**

**Aktuallaşma:** Tərbiyəçi-müəllim müxtəlif nağıl şəkillərini lövhəyə asır. Uşaqlar, hansı nağılları tanıyırsınız? Ən çox sevdiyiniz nağıl hansıdır? Bu şəkillərdəki nağılların adlarını tapa bilərsinizmi?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Düyməcik" nağılını videorolik vasitəsilə uşaqlara göstərir. Uşaqlara nağılı necə dərk etmələrini yoxlamaq üçün suallar verir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları iki qrupa ayırır.

*I qrup:* Müxtəlif nağıl personajlarının içindən "Düyməcik" nağılına aid personajları seçmək və təsvir etmək;

*II qrup:* Düyməcik və dələnin rəsmini rəngləmək və şəkil əsasında danışmaq.



## MƏŞĞƏLƏ 11

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.
**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.
**Mövzu:** "Ayı və dostları" hekayəsi.
**Məqsəd:** Hekayə haqqında sualları cavablandırır. Şəkillərə baxaraq nağılı danışır.
**İnteqrasiya: 1.1.1.** Fiziki hərəkətləri (müxtəlif istiqamətlərə yeriş və qaçış hərəkətlərini icra etmək, dırmanma, gimnastika skamyasının üstü ilə sürünmək və kürəciyi bir-birinə tərəf diyirlətmək, topu atıb-tutma) müvazinətini saxlayaraq yerinə yetirir.
**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.
**4.3.1.** Verilmiş qaydalara dözümlülük nümayiş etdirir.
**İş forması:** Fərdi iş, kollektiv iş.
**Üsullar:** Əqli hücum, suallar, sujetli-rollu oyunlar və s.
**Resurslar:** Hekayəyə aid şəkillər, hekayənin personaj paltarları və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim musiqi sədaları altında idman etməyə uşaqları dəvət edir. Uşaqlar musiqi ilə müxtəlif ritmik hərəkətlər edirlər. Tərbiyəçi-müəllim soruşur: Uşaqlar, kim idman etməyi sevir? Kim sevmir? İdman sağlamlıqdır.
**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Ayı və dostları" hekayəsinin personajları maketini nümayiş etdirir. Uşaqlara hekayəni danışır. Uşaqlara hekayəyə aid suallar verir. Uşaqların suallarını cavablandırır.
**İdman dəqiqəsi:** Müxtəlif ritmik hərəkətlər.
**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara "Ayı və dostları" oyununu oynamağı təklif edir.
Tərbiyəçi-müəllim sonda nağıla aid suallar verir.
Uşaqların cavablarını dəyərləndirir.

## MƏŞĞƏLƏ 12

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.
**Mövzu:** "İlbizin çanağı" nağılı (Asiyə Aslanər).
**Məqsəd:** "İlbizin çanağı" nağılı məzmununu iki-dörd sözdən ibarət sadə cümlələrlə danışır.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, müzakirə, tap-tapmaca və s.

**Resurslar:** Həşəratların şəkilləri, nağıl personajları, rəngli karandaşlar və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim müxtəlif şəkilləri uşaqlara təqdim edir. Bu şəkillərin içindən həşəratları seçib adlarını demələrini istəyir. Hansı həşəratların bizə xeyri olduğunu soruşur.

**Dərketmə mərhələsi:** "İlbiz çanağı" nağılının videorolikini tərbiyəçi-müəllim uşaqlara göstərir. Onların fikrini ekrana cəlb edir. Uşaqlar nağıla baxdıqdan sonra tərbiyəçi-müəllim uşaqlara nağıla aid suallar verir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında sakit hərəktlər edirlər (sanki ilbizi təqlid edirlər).

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, ilbizin çanağını bəzəsinlər. Daha sonra hər kəs öz rənglədiyi ilbizi nağılın qəhrəmanı kimi təqdim edir.

Tərbiyəçi-müəllim uşaqların işlərini və cavablarını dəyərləndirir və məşğələni yekunlaşdırır.



## MƏŞĞƏLƏ 13

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.
**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.
**Mövzu:** "Kirpi və dovşan" nağılı.
**Məqsəd:** Nağıl haqqında fikirlərini cavabları ilə nümayiş etdirir.
**İnteqrasiya: 2.1.2.** Əşyalar və sadə sujetli şəkillər üzrə danışır.
**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar yaradır.
**İş forması:** Fərdi iş, qruplarla iş, kollektiv iş.
**Üsullar:** Əqli hücum, suallar, müzakirə, rollu-sujetli oyun.
**Resurslar:** Nağıl personajları, rəngli kağızlar, yapışqan.

### Məşğələnin gedişi

**Motivasiya:** -Uşaqlar, bizim iki heyvan qonağımız var. Mən bu qutudan meyvə və tərəvəz çıxaracağam. Bunları sevən heyvanları tapsanız, həmin qonaqlar gələcəklər, tapmasanız küsüb gedəcəklər.

-Alma və kök, bunları hansı heyvanlar sevir?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim kuklalarla "Kirpi və dovşan" nağılını danışır.

Uşaqlara nağılın sonunda suallar verir.

**İdman dəqiqəsi:** Uşaqlar qrup otağında dovşan kimi tullanırlar.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara meşə mənzərəsinə dovşan və kirpinin şəklini uyğun yerə yapışdırmağı təklif edir. Daha sonra qurduqları nağıl sujeti əsasında nağılı danışırlar.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 14

**3.1.9.** Müxtəlif janrlarda (şeirlər, hekayələr, nağıllar, təmsillər, atalar sözləri, laylalar, saymacalar) olan bədii əsərlərin məzmununu təsvir edir.

**Mövzu:** "Dovşan və qarğa" nağılı (Vüqar Haqverdiyev).
**Məqsəd:** "Dovşan və qarğa" nağılının məzmununu danışır.
**İnteqrasiya: 2.1.2.** Əşyalar və sadə sujetli şəkillər üzrə danışır.
**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.
**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.
**Üsullar:** Əqli hücum, suallar, müzakirə.
**Resurslar:** Nağıl personajları oyuncaqlar.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim lövhədəki meşə şəklini uşaqlara göstərərək soruşur: bura necə adlanır? Meşədə nə yaşayır?

Uşaqlar, bu meşə şəklində bəzi heyvanların kölgələri təsvir olunub. Kim tapa bilər? Kim hansı kölgəni tapsa, həmin heyvanı kölgənin üstünə yapışdırsın. Qarğa, tülkü, dovşan və s.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Dovşan və qarğa" nağılını şəkillərlə uşaqlara danışır.

Nağılı yekunlaşdırdıqdan sonra tərbiyəçi-müəllim suallar verir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara nağıla aid bir cümlə işlətməyi təklif edir.  Sonda məzmun nəql edilir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 15

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.
**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.
**Mövzu:** "Qızıl balıq" nağılı (Vüqar Haqverdiyev).
**Məqsəd:** Nağılı danışarkən sadə cümlələr qurur. Nağıla aid sualları cavablandırır.
**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.
**3.1.2.** Təsvirində uyğun rənglərdən istifadə edir.
**3.2.3.** Təbiət guşəsində və yeməkxanada növbətçilik bacarıqlarını nümayiş etdirir.
**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.
**Üsullar:** Əqli hücum, suallar, müzakirə, rollu-sujetli oyun.
**Resurslar:** Balıq, akvarium, karandaşlar, oyuncaqlar və s.

**Məşğələnin gedişi**

**Aktuallaşma:** Tərbiyəçi-müəllim təbiət guşəsindəki akvariumu (maket) uşaqlara göstərir.

- Ay uşaqlar, gəlin balıqlarımızı yemləyək.
- Uşaqlar, balıqlar harada yaşayır?
- Daha hansı canlılar suda yaşayırlar?
- Balıqları sudan çıxarsaq, nə baş verər?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara "Qızıl balıq" nağılını danışır (personajlar göstərilir).

Nağılı yekunlaşdırdıqdan sonra nağıla aid müxtəlif suallar verilir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlardan qızıl balıq rəsmi çəkməyi istəyir. Tərbiyəçi-müəllim təklif edir ki, qızıl balıq rəsmlərini Leylaya hədiyyə göndərək ki, sevinsin.



## MƏŞĞƏLƏ 16

**2.2.4.** Danışıq səslərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** "Təmizlik" şeiri (Abdulla Şaiq).

**Məqsəd:** Şeiri əzbər deyərkən sözləri düzgün tələffüz edir. Şeiri nəql edir.

**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək, əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə.

**Resurslar:** Təmizlik əşyaları, oyuncaqlar, şəkillər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim stolun üstünə müxtəlif əşyalar qoyur. Uşaqlardan soruşur: uşaqlar, gigiyena qaydalarına əməl etmək üçün nə etmək lazımdır? Bu əşyaların içindən şəxsi gigiyena qaydalarına lazım olan əşyaları seçin və adlarını deyin. Bu əşyalarla nə edirik?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Təmizlik" şeirini bir dəfə oxuyur. Uşaqlara diqqətlə qulaq asmağı təklif edir. Yenidən oxuyur, uşaqlar da şeirdən yeni sözləri lüğətlərinə daxil edir. Sözlərin mənalarını başa salır. Nitqlərinin formalaşmasına köməklik göstərilir.

**İdman dəqiqəsi:** Şeiri təkrar edərək ritmik hərəkətlər edilir.

**Tətbiqetmə mərhələsi:** "Gülən və ağlayan" dişlər oyunu oynamaq.

Gülən və ağlayan diş şəkilləri qoyulur. Müxtəlif xeyirli və zərərli qida şəkilləri qoyulur. Gülən dişin yanına xeyirli qidalar, ağlayan dişin yanına zərərli qida şəkilləri qoyulur.

## MƏŞĞƏLƏ 17

**2.2.4.** Danışıq səslərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** "Anamı incitmirəm" şeiri (Hüseyn Arif).

**Məqsəd:** Şeiri deyərkən sözləri düzgün tələffüz etməyə çalışır. Şeiri nəql edir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**4.3.2.** Böyüklərə və həmyaşıdlarına qarşı xeyirxahlıq, qarşılıqlı kömək, dostluq, diqqət nümayiş etdirir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə.
**Resurslar:** Şəkillər, güllər və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara dairə formasında xalça üstündə əyləşməyi təklif edir.

- Uşaqlar, gəlin gözlərimizi yumaq və anamız üçün nə etmək istədiyimizi fikirləşək.
- Sonra gözlərinizi açın və bir-bir fikirləşdiyinizi deyin.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Anamı incitmirəm" şeirini videorolikdən dinlədir. Daha sonra şeirdəki sözləri uşaqlara oxunur və təkrarlanır. Şeiri əzbər öyrənmələri üçün şeiri birlikdə təkrar edirlər.

**İdman dəqiqəsi:** Şeirin sözlərini təkrar edərək ritmik hərəkətlər edirlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara karandaş və albom vərəqləri paylayır və analarına nə hədiyyə etmək istədiklərinin rəsmini çəkmələrini təklif edir. Şəkil çəkərkən şeiri müəllimin ardınca təkrarlayırlar (səsli).

Uşaqların işləri dəyərləndirilir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 18

**2.2.4.** Danışıq səslərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.
**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.
**Mövzu:** "Balaca günəş" şeiri (Mina Rəşid).
**Məqsəd:** Şeiri deyərkən sözləri düzgün tələffüz edir.
**İnteqrasiya: 2.1.2.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.
**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.
**4.3.2.** Böyüklərə və həmyaşıdlarına qarşı xeyirxahlıq, qarşılıqlı kömək, dostluq, diqqət nümayiş etdirir.
**İş forması:** Fərdi iş, kollektiv iş.
**Üsullar:** Əqli hücum, suallar, müzakirə.
**Resurslar:** Müxtəlif şəkillər.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara gülən, ağlayan, üzülən, küsən və s. xarakterlər təsvir olunmuş kartlar paylayır. Tərbiyəçi-müəllim əlində gülən kart gözləyir, bu kartı hansı uşaq tez göstərsə, o uşaq qalib sayılır və həmin ifadəni özü göstərir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Balaca Günəş" şeirini uşaqlara oxuyur. Yeni sözləri uşaqların nitqinə daxil edir. Onun mənasını açıqlayır. Uşaqlara şeiri öyrədir, sözləri düzgün tələffüz etmələrini istəyir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlara şeirdə Günəşin əhvalının üz ifadəsini təsvir etmələrini təklif edir. Daha sonra şeirdən sıra ilə cümlələri söyləyirlər. Sözlərin düzgün tələffüzünə diqqət yetirilməli.

Uşaqlar dəyərləndirilir.

Məşğələ yekunlaşır.



## MƏŞĞƏLƏ 19

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** "Gözəl Şuşa" şeiri (Zahid Xəlil).

**Məqsəd:** Şeiri söyləyərkən hiss və əlamət bildirən sözləri intonasiya ilə söyləyir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.
**Üsullar:** Əqli hücum, suallar, müzakirə.
**Resurslar:** Şuşa şəhərinə aid şəkillər.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara Şuşa şəhərinin şəklini göstərir. Şuşa haqqında məlumat verir.

**Dərketmə mərhələsi:** "Gözəl Şuşa" şeirini tərbiyəçi-müəllim oxuyur. Şeirdəki çətin sözlərin mənasını açıqlayır, təkrar edirlər. Şeiri uşaqlar deyərkən sözləri düzgün tələffüz etmələri üçün tələffüz qaydalarından istifadə edilir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlara Şuşanın rəsmlərini rəngləmək təklif olunur. Şəkil rənglənərkən şeir təkrarlanır.

## MƏŞĞƏLƏ 20

**2.2.4.** Danışıq səslərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** "Vətən sevgisi" şeiri (Solmaz Şirin).

**Məqsəd:** Şeiri deyərkən sözləri düzgün tələffüz edir. Şeiri ifadəli şəkildə deyir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.
**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.
**İş forması:** Fərdi iş, kollektiv iş.
**Üsullar:** Suallar, əqli hücum, müzakirə.
**Resurslar:** Şəkillər, karandaşlar.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlardan Vətənimizə aid suallar verir. Rəmzlər haqqında suallar verir.

**Dərketmə mərhələsi:** "Vətən sevgisi" şeirini uşaqlara oxuyur. Şeiri oxuyarkən uşaqların üz ifadələrinə nəzər yetirir. Şeirdəki çətin sözləri uşaqların diqqətinə çatdırır. Uşaqlar şeiri deyərkən düzgün tələffüz etmələrinə çalışır.

**İdman dəqiqəsi:** Musiqili ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, qutuya hər dəfə bir şəkil qoyacağam. Bu şəkillər Vətənimizə aiddir. Mən sizə bir-iki açar söz deyəcəyəm. Siz bu qutuda olan şəkli tapmağa çalışacaqsınız.

Məşğələnin sonunda şeir təkrarlanır.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 21

**2.2.4.** Danışıq sözlərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** "Qış" şeiri (Xanımana Əlibəyli).

**Məqsəd:** "Qış" şeirini deyərkən sadə sözləri düzgün tələffüz edir. Qış fəsli şeirini nəql edir.

**İnteqrasiya: 2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə, didaktik oyunlar.

**Resurslar:** Şəkillər, oyuncaqlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim bir ağac budağını ortaya qoyur. Tərbiyəçi-müəllim qış fəslinə aid tapmaca deyir. Tərbiyəçi-müəllim təklif edir ki, bu budağı qış fəslinə aid bəzəyək. Xırda pambıqlar ağaca yapışdırırlar.

- Uşaqlar qar nə vaxt yağır? Hansı fəsli çox sevirsiniz?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Qış" şeirini uşaqlara oxuyur. Sözləri düzgün tələffüz etmələrinə çalışır. Şeirə aid suallar verir. Əzbərləmə texnikalarından istifadə edilərək şeir əzbərlənir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara oyun oynamağı təklif edir.

"Fəsillərə uyğun geyin" didaktik oyunu.

## MƏŞĞƏLƏ 22

**2.2.4.** Danışıq səslərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** "Mənim əziz müəllimim" şeiri (Təhminə Hümbətova).

**Məqsəd:** Şeirdəki sözləri düzgün tələffüz edir. Şeiri nəql edərkən əlamət, hiss bildirən sözləri intonasiya ilə söyləyir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və Vətəni haqqında suallara cavab verir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə, didaktik oyunlar.

**Resurslar:** Şeirə aid şəkillər, videoroliklər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim müxtəlif peşələrin şəkillərini uşaqlara göstərir. Tərbiyəçi-müəllim uşaqlara hər peşəyə aid sözlər deyir, uşaqlar hansı peşə olduğunu tapmalıdırlar. Tərbiyəçi-müəllim müəllimlərə aid açar sözlər işlədir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim "Mənim əziz müəllimim" şeirini oxuyur. Şeirdəki uşaqlara tanış olmayan sözləri başa salır. Şeiri əzbərlətmə texnikasından istifadə edərək şeiri öyrədir. Tərbiyəçi-müəllim uşaqlara şeirə aid suallar verir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla əl-ələ tuturlar. Dairəvi formada otururlar. Hər uşağa müəllimə aid bir söz demək təklif edilir.

Tərbiyəçi-müəllim uşaqlara şeiri təkraraladaraq məşğələni yekunlaşdırır.

## MƏŞĞƏLƏ 23

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** "Pişik" şeiri (Mirmehdi Seyidzadə).

**Məqsəd:** Şeir haqqında fikirlərini cavabları ilə nümayiş etdirir. Şeirə aid suallar verir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**3.1.4.** Sadə yapma (bir, üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir.

**İş forması:** Qrup işi, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə və s.

**Resurslar:** Şəkillər, plastilin, oyuncaqlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim pişik səsi səsləndirir. Uşaqlara deyir: - ay uşaqlar, siz də bir səs eşidirsinizmi? Bu hansı heyvanın səsidir?

Uşaqlar pişik olduğunu tapırlar. Tərbiyəçi-müəllim uşaqlara pişik haqqında hərəyə bir söz demələrini təklif edir.

**Dərketmə mərhələsi:** Uşaqlar "Pişik" şeirini dinləyirlər. Tərbiyəçi-müəllimin verdiyi suallara cavab verirlər. Tərbiyəçi-müəllim şeiri öyrədərkən düzgün tələffüz üçün müxtəlif texnikalardan istifadə etməlidir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara plastilin paylayır və pişik düzəltməyi təklif edir. Plastilinlə işləyərkən şeir səsli formada təkrarlanır.

Uşaqların işləri dəyərləndirilir. Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 24

**2.2.4.** Danışıq səslərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** "Bahar mənəm" şeiri (Nəbi Xəzri).

**Məqsəd:** "Bahar mənəm" şeirini söyləyərkən düzgün tələffüz edir. Şeiri yüksək səslə söyləyir.

**İnteqrasiya: 2.1.6.** Gündəlik rast gəldiyi ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**3.1.9.** Müxtəlif janrlarda şeirlər, hekayələr, nağıllar, təmsillər, atalar sözləri, laylalar, saymacalar olan bədii əsərlərin məzmununu təsvir edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə.
**Resurslar:** Fəsillərin rəsmi, fəsillərə aid əşyalar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim stolun üstünə bir qutu qoyur. Qutunun ətrafına çiçək açmış ağac, yaşıl otlaqlar, göy qurşağı və s. yaz fəslinə aid şəkillər düzür. Tərbiyəçi-müəllim uşaqlara deyir: Uşaqlar, bu qutuda bir quş var. Bu quş bir fəsli çox sevir. O fəsli bu şəkillərə baxaraq tapa bilərsiniz, fəsli tapsaz, qutu açılacaq, həmin quş içindən çıxacaq.

Uşaqlar yaz fəslində qaranquşlar gəldiyini tərbiyəçi-müəllimin köməyi ilə tapırlar.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim şeiri uşaqlara oxuyur. Tərbiyəçi-müəllim soruşur: şeir hansı fəslə aiddir?

Uşaqlar sualları cavablandırır. Şeiri öyrənərkən sözləri düzgün tələffüz edirlər.

**İdman dəqiqəsi:** Uşaqlar musiqi sədaları altında ritmik hərəkətlər edirlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara bir kub göstərir. Hər kubun üzündə bir fəsil təsvir olunub. Uşaqlardan biri kubu atır. Hansı fəsil düşsə, o fəsil haqqında danışır. Yaz fəsli düşəndə şeirdən bir hissə söyləyir.

## MƏŞĞƏLƏ 25

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.
**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.
**Mövzu:** Tapmacalar.
**Məqsəd:** Tapmacanı tapmaq üçün verilən sualları dinləyir. Tapmaca haqqında fikirləri cavabları ilə nümayiş etdirir.
**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.
**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.
**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.
**Üsullar:** Əqli hücum, suallar, tap-tapmaca.
**Resurslar:** Əşyalar, şəkillər.

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim lövhədəki şəkilləri uşaqlara göstərib onların fikrini cəlb edir. Lövhədə böyük gül şəkli var. Ləçəklərinin hər birində bir şəkil var. Bir ləçəyində dairə, bir ləçəyində sarı rəng, bir ləçəyində uzun sarı xətt təsvir olunmuşdur. Gülün ortasındakı şəkil qapadılır. Tərbiyəçi-müəllim soruşur: Uşaqlar, bu şəkillərə baxaraq gülün ortasındakı şəkli tapa bilərsiniz? Tapmacanı deyir:

*Aləmə işıq salır,*
*Axşam gül kimi solur.*

Sarı rəngdədir, dairəvidir, uzun sarı şüaları var, gündüz görünmür.
Uşaqlar bu şəkillərə baxaraq ortadakı şəklin günəş olduğunu tapırlar.
Tapmacanın cavabı günəşdir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara tapmacalar haqqında məlumat verir. Tapmacada hər hansı bir əşyaya aid açar sözlərin olduğunu deyir.

*Aləmə işıq salır,*
*Axşam gül kimi solur.*

**(Günəş)**

**İdman dəqiqəsi:**

*Külək kimi əsərək,*
*Yağış kimi yağaraq,*
*Günəş kimi çıxaraq,*
*Hərəkətlər etmək.*

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, hər uşaq istədiyi əşya haqqında tapmaca desin. Qutunun içinə əşya qoyulur. Uşaq onun əlamətlərini söyləyir. Digər uşaqlar tapır.

# MƏŞĞƏLƏ 26

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.
**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.
**Mövzu:** Tapmacalar.
**Məqsəd:** Tapmacanın açmasını cavabları ilə nümayiş etdirir.
**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.
**4.2.3.** Problemin həllində iştirak edir.
**İş forması:** Fərdi iş, qruplarla iş, kollektiv iş.
**Üsullar:** Əqli hücum, suallar, tap-tapmaca.
**Resurslar:** Tapmacaya aid şəkillər, oyuncaqlar.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim qutunun içinə bir oyuncaq qurbağa qoyur. Qutunun hər tərəfinə qurbağaya aid şəkillər yapışdırır. Tərbiyəçi-müəllim uşaqlara tapmacanı deyir.

*Gecə çağında,*
*Göl qırağında*
*Tapın görək nə*
*Edərdi qur-qur?*

Uşaqlar öz fikirlərini söyləyirlər.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara müxtəlif tapmacalar deyir. Tapmacada əşyaya aid açar sözlərin olduğunu öyrədir. Uşaqlara tapmaca qurmağı öyrədir.

**İdman dəqiqəsi:** Uşaqlar qurbağa səsi çıxardaraq qrup otağında qurbağa kimi atılırlar.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları dairəvi şəkildə düzərək xalça üzərində əyləşdirir. Hər uşaq yanında oturan uşağın qulağına hər hansı əşya və ya heyvanın adını deyir. Həmin uşaq o əşyaya aid məlumatlar verir. Onun cavabını tapan uşaq qalib gəlir.

## MƏŞĞƏLƏ 27

**2.2.4.** Danışıq səslərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Laylalar.

**Məqsəd:** Laylaları deyərkən sözləri düzgün tələffüz edir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**3.1.7.** Musiqini anladığını ifa bacarığı (sadə mahnılar oxumaq, musiqili ritmik hərəkətlər etmək) ilə nümayiş etdirir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə.

**Resurslar:** Gəlincik, beşik, kəlağayı və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim beşiyin içinə gəlincik qoyur. Uşaqların fikrini ora cəlb edir. Uşaqlar, siz körpə olarkən ananız, nənəniz sizi necə yatızdırırdı?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, gəlin layla oxuyaraq gəlinciyi beşikdə yatızdıraq. Tərbiyəçi-müəllim uşaqları beşiyin ətrafında xalça üzərində əyləşdirir və layla oxuyaraq beşiyi yelləyirlər. Tərbiyəçi-müəllim oxuyur:

*A lay-lay, gülüm lay-lay,*
*Gülüm, bülbülüm lay-lay.*
*Böyü, sənin sayəndə*
*Mən də bir gülüm, lay-lay.*

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim beşiyi uşaqlara verərək, gəlinciyi sevərək, geyindirib beşiyə qoyaraq, layla oxuyaraq yatızdırmağı təklif edir.

## MƏŞĞƏLƏ 28

**2.2.4.** Danışıq sözlərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Atalar sözləri.

**Məqsəd:** Atalar sözlərini deyərkən sözləri düzgün tələffüz edir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə və s.

**Resurslar:** Vətənə aid şəkillər, rəmzlər və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim rəmzləri uşaqlara göstərir. Müxtəlif suallar verir. Vətənimiz haradır, Vətənimizi sevirsinizmi?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim atalar sözlərinin mənasını uşaqlara açıqlayır. Vətənə aid atalar sözləri deyir.

1. Hər kəsə öz vətəni əzizdir.
2. Vətənə gəldim, imana gəldim.

Uşaqlar atalar sözlərini deyərkən cümləni düzgün tələffüz etməyi söyləyir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar bayraq şəklini rəngləyirlər.

Atalar sözlərini təkrar edirlər.



## MƏŞĞƏLƏ 29

**2.2.4.** Danışıq sözlərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Əyləncə, saymaca.

**Məqsəd:** Saymacaları deyərkən sözləri düzgün tələffüz edir, saymaca deməyi sevir.

**İnteqrasiya: 4.1.2.** Hərəkətli oyun, əyləncə zamanı emosiya, əhval-ruhiyyə (sevinc, təəccüb və s.) nümayiş etdirir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə, hərəkətli oyun.

**Resurslar:** Oyuncaq kuklalar.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim əlinə əyləncəli əlcəyi taxaraq, oyuncaqları oynadaraq saymacanı oxuyur. Uşaqların fikrini özünə cəlb edir. Uşaqlar tərbiyəçi-müəllim ilə birlikdə barmaqlarını oynadırlar.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara əyləncəli saymacları müxtəlif oyunlarda oxunduğunu deyir. Adətən, müxtəlif hərəkətli oyunların başlanğıcında oxunur.

**İdman dəqiqəsi:** Əyləncəli saymaclar deyərək idman hərəkətləri etmək.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara "Gizlənqaç" oyununu oynamağı təklif edir. Oyunun başlanğıcında uşaqlar dairəyə düzülüb saymacanı deyirlər. Saymaca kimin üstündə bitsə, həmin uşaq gözünü bağlayır.

Oyun bitdikdə məşğələ sonlanır.

## MƏŞĞƏLƏ 30

**2.2.4.** Danışıq sözlərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Əyləncələr, saymaca.

**Məqsəd:** Əyləncəli oyun zamanı saymaca deməyi xoşlayır.

**İnteqrasiya: 4.1.2.** Hərəkətli oyun, əyləncə zamanı emosiya, əhval-ruhiyyə (sevinc, təəccüb və s.) nümayiş etdirir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə, hərəkətli oyunlar.

**Resurslar:** Oyun üçün alətlər, kuklalar.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqları hərəkətli oyun oynamağa dəvət edir. Oyunu başlamazdan əvvəl saymaca deyərək uşaqları komandalara ayırır.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara saymaca öyrədir. Uşaqlara saymacanı deyərkən düzgün tələffüz etmə texnikalarından istifadə edilir. Saymacanı deyərkən uşaqlara tanış gəlməyən sözləri tərbiyəçi-müəllim izah edir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, uşaqlar iki-iki saymacanı dialoq şəklində desin. Tərbiyəçi-müəllimin köməyi ilə uşaqlar saymacanı dialoq şəklində deyirlər.



*Bir, iki,*
*Bizimki*
*Üç, dörd,*
*Qapını ört.*
*Beş, altı*
*Daşaltı.*
*Yeddi, səkkiz,*
*Firəngiz.*
*Doqquz, on,*
*Qırmızı don.*

# DƏRMAN

*Uşaqlar üçün ibrətamiz hekayə*

Balaca qızcığazın anası yaman xəstələndi. Evə gələn həkim gəlib müayinə etdi, lakin həkim nə görsə yaxşıdı!?... Ana bir əli ilə başını tutur, digəri ilə yerdən oyuncaqları toplayır, qızcığaz isə stulda oturub əmr edir:

- Ana, mənim kubik oyuncaqlarımı gətir!

Ana kubik oyuncaqları yerdən toplayıb qızına verdi.

- Bəs gəlinciyim? Hanı mənim gəlinciyim? -deyə qız yenə qışqıraraq anasına müraciət etdi.



Həkim həm anaya, həm də qızcığaza baxıb dedi:

- Qızımız oyuncaqlarını özü yerdən toplamağı öyrənməyənədək ana sağalmayacaq!

## GÜLÜMSƏYƏN ÇİÇƏKLƏR

*Günel Almaz*

Balaca Jalə anasının qucağında oturmuşdu. Avtobusla harasa gedirdilər. Jalənin gözləri pəncərədə idi, gülümsünürdü. Arabir kiməsə əl eləyirdi.

Anası əyilib onun üzündən öpdü:

- Kim var orda? Kimə əl eləyirsən?

- Çiçəklərə, anacan... Onlar məni salamlayır.

Anası pəncərədən baxdı. Yolun kənarı çiçəklərlə dolu idi. Külək əsir, onları sağa-sola yellədirdi.



## PİŞİK VƏ GƏLİNCİK

*Elçin Cabbarov*

Şəhərin ucqar küçəsində bir qonur pişik yaşayırdı. O, yaşıl bir bağçada hasarın dibində özünə evcik tikmişdi.

Bir gün pişik küçədə gəzərkən bir gəlincik tapdı. Onu dişinə alıb evciyinə apardı.

Ertəsi gün pişik gördü ki, qonşuluqda yaşayan qızcığaz nə isə axtarır. Anası isə deyirdi:

-Gedək, qızım, təzəsini alarıq.

-Yox! Mən öz gəlinciyimi istəyirəm, -deyə qız ağlayırdı.

-Onda itirməzdin. Öz günahındır.

Pişik evciyinə gəldi. Gəlinciyə baxıb öz-özünə dedi: "Anası düz deyir də, gərək itirməzdi. İndi o mənim gəlinciyimdir". Amma sonra nə fikirləşdisə, gəlinciyi dişinə alıb qızgilə gəldi.

Gəlinciyini görən qız çox sevindi. O, pişiyi evə saldı, ona nimçədə süd verdi. Gəlinciyini bağrına basdı. Onlar xeyli oynadılar.

Axşam pişik evciyinə gedəndə bilirdi ki, sabah qız onu səbirsizliklə gözləyəcək. Çünki gəlincik onları ayrılmaz dostlara çevirmişdi.



# DOVŞANIN NAĞIL KİTABI

*Yuri Yarmış*

Biri var idi, biri yox idi, boz bir dovşan var idi. Günlərin bir günü dovşan meşədə bir kitab tapır. Dovşan kitabın səhifələrini bir-bir vərəqləyib içərisindəki rəsmlərə baxır, amma hərfləri bilmədiyinə görə oxuya bilmir.

- Kaş ki qarşıma kitab oxuya bilən biri çıxaydı! Yəqin kitabdakı hekayələr çox maraqlıdır," -deyə dovşan öz-özünə fikirləşir və kitabı qolunun altına alıb meşə boyu hərəkət edir.

Dovşan təzəcə bir-iki addım atmışdı ki, qarşısına tülkü çıxır:

- Salam, Çəpgöz. De görüm əlindəki nədir? -deyə tülkü soruşur.

- Bu bir nağıl kitabıdır, tülkü lələ! Bax gör, səhifələrində necə də gözəl rəsmlər var! Zəhmət olmasa, mənim üçün oxu, mən də dinləyim!

- Yaxşı, sən deyən olsun, çəpgöz, -tülkü razılaşır.

Tülkü bir kötüyün üstündə oturub kitabı açır və sətirlər boyu pəncələrini sürtüb oxumağa başlayır: "Biri vardı, biri yox, bir baba və nənə var idi. Onların Ryaba adlı toyuqları vardı. Toyuq hər gün dadlı yumurtalar yumurtlayır, amma toyuğun özü daha dadlı idi..."

-Xeyr, Tülkü lələ! -dovşan tülkünün sözünü ağzında kəsir, -sən düz oxumursan! Burada Arıquşu, Tarla və Pişik balalarının rəsmi çəkilib!

-Hələ bax sən işə yaramaz bu dovşana! -Tülkü inciyərək deyir: -Əgər mənə inanmırsansa, sağikən qaç canını qurtar!

Tülkü kitabı yerə atır, dovşan kitabı yerdən qaldırıb tez oradan uzaqlaşır. Dovşan bir qədər getmişdi ki, qarşısına boz Canavar çıxır.

- Hər vaxtın xeyir, Canavar əmi! -Dovşan salam verib kitabı canavara uzadır.

- Çəpgöz! De görüm kitab mənim nəyimə lazımdır?

- Mənim üçün oxuya bilərsən? -Dovşan canavardan xahiş edir: -Maraqlı nağıl kitabına bənzəyir!

- Nağıl? -deyə canavar soruşur -maraqlı nağıldırsa, oxumaq olar!

Canavar kitabı açıb gözlərinə yaxın tutur və başlayır qalın səslə oxumağa: "Bir vaxtlar nənənin boz keçisi var idi. Dadlı-dadlı... Nənə keçini çox sevirdi. Çox, çox, çox sevirdi! Mən də çox sevirəm…"

Dovşan ilk başda canavarın nağılına qulaq asır, sonra kitaba baxır və təəccübdən ağzı açıq qalır:

- Canavar əmi, axı sən oxuya bilmirsən! Kitabdakı rəsmlər baş-ayaq durur!

- Nə-ə-ə!? -Canavar əsəbiləşir və kitabı kolların arasına atır: -Tez yox ol gözlərimin qarşısından, yoxsa dişlərimin arasına salacam səni! Hələ mənə oxuya bilmədiyimi deyir! Burda nə var ki? Bütün maraqlı nağıllar dadlı quzular haqqındadır!

Yazıq Dovşan kitabını götürüb qorxudan başı alovlu elə sürətlə qaçır ki, meşədə göbələk yığan qızcığazın yanından necə keçdiyinin fərqinə belə varmır.

-Sakit ol, Dovşan, sakit ol! -qızcığaz dovşanı tutub sığallayır, -axı səni kim qorxudub belə?… Bəs bu kitab nədir? Nağıl kitabıdır? Doğrudan da, nağıl kitabıdır. Həm də içərisində bir deyil, bir neçə nağıl var! Gəl birlikdə oxuyaq!

Bax beləcə qızcığaz dovşana kitabda olan bütün nağılları oxuyur.

Bilmək istəyirsən hansı nağılları? «Şən Arıquşu», «Meşə danışanları», «Yüngül Külək», «Gözəl Bulud», «Göy Gurultusu və İldırım», «Yaramaz pişik balası» və «Kirpi və bülbül». Onlara sən də qulaq as! Bacarırsansa, oxu!

## ZƏRƏRLİ MİKROB HAQQINDA NAĞIL

***Lavrençenko Yuliya***

Qədim zamanlardan insan orqanizmində çox sayda müxtəlif mikroblar yaşayır. Onların bəziləri zərərli, bəziləri isə zərərsizdir.

Lakin zərərli mikroblar insan immunitetinin onlardan daha güclü olması ilə barışa bilmirlər!

Bir gün Liliya adlı balaca bir qızcığaz əllərini yaxşı yumadı, nəticədə onun bədəninə çox zərərli bir mikrob daxil oldu. Xeyirxah və faydalı mikroblar ondan qorxaraq evlərində gizləndilər.

- Belə daha yaxşıdır, indi buranın ağası mənəm! -deyə zərərli mikrob qışqırıb gülməyə başladı.

- Çox özünə güvənmə. Hazırlaş, indi immunitet səni məğlub edəcək! -aralarından bir qoçaq dedi.

- Ha-ha, yaxşı, sizin öyündüyünüz bu immunitet hardadır? -zərərli mikrob təəccüblənərək soruşdu.

Heç kim ona cavab vermədi. Bütün mikroblar başa düşdülər ki, əgər zərərverici burdadırsa, deməli, Liliyanın immuniteti hələ onunla mübarizə aparmağa başlamamışdır...

Birdən körpə özünü pis hiss etməyə başladı: qızdırması qalxdı, iştahı kəsildi – immunitet artıq iş başında idi. O, zərərverici mikrob ilə mübarizəyə başlamışdı.

Qızcığaz yatmaq və dincəlmək üçün uzandı, çünki yuxu zamanı immunitet sisteminin aktiv şəkildə işlədiyini, bədənin daha sürətli bərpa olunduğunu və güc qazandığını bilirdi.

Liliya yatanda anasından ona kompot gətirməsini xahiş etdi. Xəstəlik zamanı maye bədəni susuzlaşdırmadan xilas edir və ondan zərərli maddələri çıxarır. Bundan sonra o, özünü daha yaxşı hiss edib, sevimli oyunlarını oynamaq üçün yataqdan qalxdı.

Liliyanın orqanizmində yaranan gümrahlıq hissi və müsbət emosiyalar öz xeyirxah əməllərini yerinə yetirdilər: Liliyanın immunitetinə zərərli mikrobun yaratdığı xəstəliyi mümkün qədər tez və daha aktiv şəkildə uzaqlaşdırmaqda kömək etdilər. Qız özünü daha da yaxşı hiss edəndə o qədər sevindi ki, otaq boyu tullanmağa başladı.

-Mən sağlamam, mən sağlamam, şən və gümraham! -deyib rəqs etdi.

Bu vaxt zərərli mikrob Liliyanın bədənindən tamamilə yox olana qədər özünü getdikcə pis hiss etməyə başladı.

Liliya artıq başa düşdü ki, nəhayət, sağalıbdır.

O vaxtdan Liliya, həmişə əllərini sabunla yaxşı yumağa və yalnız təmiz əllərlə yemək qəbul etməyə qərar verdi. Axı sağlam olmaq çox yaxşı və sevinclidir!



## GÜNƏBAXANLAR

*İsmayıl Bilgin*

İyul ayı idi. Tarlada çoxlu günəbaxan var idi. Onlar böyüyüb çiçək açmışdılar. Günəbaxanların üzü həmişə Günəşə sarı idi. Amma balaca bir günəbaxan Günəşə sarı baxmırdı. Onun bu hərəkətinə digər günəbaxanlar təəccübləndilər:

-Sən niyə Günəşə baxmırsan?

-Mən Günəşdən küsmüşəm. Onunla danışmıram.

-Axı niyə?

-Çünki gecə yuxudan oyananda Günəş məni heç isitmədi. O elə solğun idi ki... Siz isə deyirsiniz: "Günəş bizə daim istilik verir".

-O, Günəş deyil ki!

-Nədir bəs?

-O, Aydır. Ay istilik vermir.

-Bəs niyə işıq saçırdı? Yanında da balaca-balaca dostları vardı.

-Bu sözləri eşidən günəbaxanlar gülüşdülər.



# ÇİL TOYUQ VƏ SİÇAN BALALARI

*Rus nağılı*

Bir evdə Çil Toyuq və iki siçan balası yaşayırdı. Bir dəfə Toyuq kökə bişirmək istədi. Siçanlara dedi:

- Sünbülü dəyirmana kim aparacaq?

- Biz yox, biz yox! -deyə siçanlar qışqırdılar və topu götürüb oynamağa qaçdılar.

Toyuq özü sünbülü dəyirmana apardı. Qonşuluqda yaşayan Sincab və Dovşan ona kömək etdilər. Toyuq dənləri üyütdü, dadlı kökələr bişirdi və dedi:

- Kökələr hazırdır. Onları kim yeyəcək?

- Biz, biz! -deyə siçanlar qışqırdılar.

Toyuq dedi:

- Yox, belə olmaz. Kim işləyibsə, kökələri də o yeyəcək!

Toyuq Dovşanı və Sincabı qonaq çağırdı.

Oturub ləzzətlə kökələri yeməyə başladılar.

Siçanlar isə baxa-baxa qaldılar.







## YAXŞILIQ ETMƏK

*Valentina Oseyeva*

Yurik səhər yuxudan oyanıb, pəncərədən çölə baxdı. Günəş əlvan şəfəq saçırdı hər yana! Yaxşı bir gün idi!

Yuri bu gün yaxşılıq etmək istəyirdi, oturub fikrə getdi: "Əgər bacım boğulsaydı, onu xilas edərdim!"

Həmin an bacısı Yurikin yanına gəlib dedi:

-Məni gəzməyə apar, Yura!

-Get burdan, düşünməyimə mane olursan!

Bacısı inciyib oradan uzaqlaşdı.

Yura yenə düşünməyə davam etdi: "Canavarlar dayəyə hücum etsəydilər, mən də onları öldürərdim!"

Dayə Yuraya yaxınlaşıb dedi:

-Qabları təmizləməyə kömək et, Yuroçka.

-Özün təmizlə, vaxtım yoxdur! -deyə Yura cavab verdi.

Dayə başını bulayıb, oradan uzaqlaşdı.

Yura yenidən düşündü: "İtimiz Trezorka quyuya düşsəydi, onu quyudan çıxarardım!"

Trezorka həmin an onun yanında peyda oldu. O, quyruğunu yelləyib su istədi:

-Uzaqlaş burdan! Düşünməyimə mane olursan! -Yura Trezorkanı yanından qovdu.

Trezorka ağzını yumub, kolların altına girdi.

Yura anasının yanına gəlib ondan soruşdu:

-Anacan, yaxşılıq etmək istəyirəm, nə edə bilərəm?

Anası Yuranın başını sığallayıb dedi:

-Bacınla gəzintiyə çıx, dayəyə qabları təmizləməyə kömək et, itimiz Trezorkaya isə bir az su ver.

## QARAĞACIN KÖLGƏSI

*Əli Səmədli*

Aysellə Aytel nənələrigilə gedirdilər. Hava günəşli və çox isti idi. Nənələrinin də evi kəndin lap o başında idi. İsti onları karıxdırmışdı. Qızların alnından tər axırdı. Küçəni burulanda yolun qırağında bir iri, şaxəli qarağac gördülər.

Onun kölgəsində daldalandılar. Ağacın kölgəliyi necə də sərin idi. Uşaqlar dincəldilər, tərləri soyudu. Yola düşəndə dedilər:

-Çox sağ ol, ay kölgə, sən olmasaydın, isti bizim nəfəsimizi kəsmişdi.

Bu zaman onların yanından ötən Gülsabah xala gülümsəyib dedi:

-Siz "sağ ol"u kölgəyə yox, qarağaca deyin. Axı qarağac olmasaydı, kölgə haradan olacaqdı?!



## DÜYMƏCİK

***Mətanət Ulu Şirvanlı***

*Biri vardı, biri yox...*
*Nə az idi, nə də çox.*
*Bapbalaca Düyməcik*
*Nə ac idi, nə də tox...*

Qalın şam meşəsinin şərq istiqamətində gözəl və əsrarəngiz bağ vardı.

Bağda yulğun və fındıq ağaclarının nazik budaqlarından hazırlanmış kiçik bir ev yerləşirdi. Bu evin sakinlərindən birinin adı Düyməcik idi. Düyməcik adlanan bu şirin qızın xurmayı saçları, yaşıl gözləri, yumru burnu və zərif dodaqları vardı.

Danışanda adama elə gəlirdi ki, sözlər kəpənək kimi onun ağzından çıxıb uçuşur, güləndə isə ətrafa zərli toxumcuqlar səpələnirdi sanki. Qız o qədər balaca idi ki, boyunun hündürlüyü bağdakı sincablardan seçilmirdi.

Düyməciyin özü kimi, ata-anası da balaca idi. Onlar xoşbəxt və adamlardan uzaq yaşayırdılar. Dostları meşədə yaşayan heyvanlar, yeməkləri isə meyvələr olardı.

Düyməcik bütün günü heç nə yeməmişdi. Lakin nə ac idi, nə də tox. Meyvə dalınca gedən atası evə qayıtmamışdı. Qızcığaz atasını arzulayırdı. Birdən Düyməcik kövrəldi:

-Anacan, mən atamı istəyirəm, o, niyə qayıtmır evimizə?

Anası nigarançılığını qızından gizlədərək dedi:

-Darıxma qızım, harada olsa, indilərdə gəlib çıxar.

Amma ata qayıtmırdı...

Ana darıxdı, ayağa qalxdı.

-Qızım, get meyvə səbətini gətir, gedim sənə meyvə dərim gətirim, həm də atandan xəbər bilim. Amma sən qapını heç kimə açmayasan ha! Amandı, gəlib səni oğurlamasınlar. Eşitdin, Düyməcik, bizdən başqa, bir kimsəyə qapını açma ha.

Düyməcik:

-Açmaram, ana, arxayın ol, -dedi.

Axşam düşmüşdü. Bayırda külək əsməyə başladı. Küləyin səsindən Düyməcik qorxub, divara qısıldı. "Ana, ata, hardasınız? Gəlin!" -deyə ağlamağa başladı. Birdən qulağına səs gəldi.

Tık... tık... tık... tık... tık... tık…

Düyməcik küncə qısıldı. Qapı döyülürdü. Tık... tık... tık... Nazik ciyiltili səs eşitdi Düyməcik.

-Ey, kim var evdə?

Düyməcik ürəkləndi. Amma danışmadı.

-Kimsə yoxdurmu evdə?

Düyməcik qorxa-qorxa:

-Evdə mən varam, -dedi.

-Qapını aç.

-Olmaz, anam deyib ki, heç kimə qapı açma.

-Mən sənə ziyan vermərəm, aç, xahiş edirəm.

Düyməcik qapını açdı. Amma qarşısındakını tanımadı.

-Sən kimsən? -soruşdu.

-Mən Dələyəm. Evinizin yanından keçirdim, ağlamaq səsi eşitdim. Ona görə də sənə kömək etmək istədim.

Sonra Düyməcikdən soruşdu:

-Sənin adın nədi?

-Düyməcik.

-Acmısan?

-Bilmirəm, -dedi Düyməcik.

Dələ əlində tutduğu şam ağacının qozalarını ona uzatdı:

-Yəqin ki, acmısan. Götür, ye, -dedi.

Düyməcik:

-Qoza yeyə bilmirəm. Mən meyvə yeyirəm. Anam mənə meyvə gətirəcək.

Dələ ilə Düyməcik dostlaşdılar. Saatlar ötmüşdü. Düyməciyin valideynləri hələ də gəlib çıxmamışdılar. Dələ onu tək qoyub getmək istəmirdi.

Düyməcik yorulmuşdu, yatmaq istəyirdi. Anası gəlsəydi, onu qıçlarının üstündə yırğalayıb yatırdardı. Odur ki, Dələ Düyməciyə təklif etdi:

-Düyməcik, gəl çıx mənim quyruğumun üstünə, səni yırğalayım, sən də yat.

Düyməcik Dələnin quyruğunun üstünə çıxdı. Dələ onu balası kimi əzizləyib, quyruğunun üstündə yatırtdı.

Elə bu zaman Düyməciyin ata-anası açıq qapıdan içəri girdi. Düyməciyi evdə görməyib hay-həşir qopardılar.

-Vay, vay, hanı mənim Düyməciyim, hanı mənim qızım, mənim balamı neyləmisən? -deyə Dələni döyməyə başladılar.

Səs-küyə Düyməcik yuxudan oyandı. Dələnin quyruğunun üstündən qalxıb, əl etdi:

-Anacan, atacan, mən burdayam! -dedi.

Dələ onların bu hərəkətindən küsdü. Düyməciyi yerə düşürüb, sakitcə evdən getmək istədi. Bunu görən Düyməcik onun əlindən tutub dedi:

-Anacan, tanış olun, bu, Dələdir, o mənim dostumdur.

Düyməciyin ata-anası dələdən üzr istədi. Gətirdikləri meyvəyə Dələni də qonaq etdilər. O gündən onlar mehriban dost kimi birlikdə yaşadılar.

## AYI VƏ DOSTLARI

*Ülkər Rəhimqızı*

Heyvanlar səhər idmanı edirdilər. Təkcə Ayı yuxudan durmaq istəmirdi. Bir gün belə, iki gün belə...

Dostları onu danlayırdılar:

- Belə olmaz! Günü-gündən tənbəlləşirsən.

Bir gün meşədə yanğın baş verdi. Heyvanlar qaçmağa başladılar. Ayı da yaman qorxmuşdu. Amma sürətlə qaça bilmirdi. Dostları onu çayın kənarına gətirdilər.

Meşə kralı Şir dedi:

- Bu sənə dərs olsun! İdmanla məşğul olsaydın, çəld, çevik olardın. Özünü də, dostlarını da təhlükəyə atmazdın.



## İLBİZİN ÇANAĞI

*Asiyə Aslanər*

Biri var idi, biri yox idi. Bir İlbiz var idi. İlbiz həmişə qəhvəyi çanağını belində daşıyırdı. Bu da onun heç xoşuna gəlmirdi. Elə hey dostlarına şikayətlənirdi:

-Ah, çanağımı belimdə daşımaqdan yorulmuşam. Bu nə çanaqdır?! Heç bəzəyi də yoxdur.

Günlərin bir günü Kəpənək dedi:

-Bilirsən, meşədə rəssam Tırtıl yaşayır. Gəl onun yanına gedək. O sənin çanağını istədiyin kimi rəngləyər.

İlbiz bu xəbərə sevindi. Birlikdə yola çıxdılar. Tırtılın evinə gəlib çatdılar. Tırtıl İlbizin çanağını rəngarəng naxışlarla bəzədi.

İlbiz al-əlvan çanağını bəyəndi.

Dostlar geri qayıdırdılar. İlbiz çox yavaş hərəkət edirdi. Birdən güclü yağış yağmağa başladı. Leysan Kəpənək və Parabüzəni tamamilə islatdı. İlbiz isə sakitcə çanağına çəkilib yağışın kəsməyini gözlədi. Yağış kəsdikdən sonra İlbiz su içində büzüşmüş dostlarını gördü.

Öz-özünə düşündü:

-Yaxşı ki, məni qoruyan çanağım varmış.





## KİRPİ VƏ DOVŞAN

*Qrimm qardaşları*

Bir gün Dovşanla Kirpi görüşdülər. Dovşan Kirpinin ayaqlarına gülüb dedi:

-Necə də qısa ayaqların var. Sən heç qaça bilirsən?

-Gəl yarışaq.

Dovşanın lovğalanmağı Kirpinin xoşuna gəlmədi.

O, hiylə işlətdi. Dostunu köməyə çağırdı. Kirpinin dostu yolun sonunda dayandı.

Bir, iki, üç... Yarış başladı.

Dovşan yolun sonuna çatdı. Gördü ki, Kirpi artıq buradadır. Tez geri qayıtdı. Burada da Kirpi onu gözləyirdi.

Beləcə, Dovşan bir neçə dəfə ora-bura qaçdı.

Dovşan yaman yorulmuşdu. Kirpinin isə kefi kök idi. Dovşana yaxşı dərs vermişdi.





## DOVŞAN VƏ QARĞA

*Vüqar Haqverdiyev*

Biri var idi, biri yox idi, balaca bir meşədə bir Dovşan var idi. Bu dovşan çox təmizkar idi. Hər gün evinin ətrafını süpürüb-təmizləyir, yuyub-silirdi. Ancaq onun təmizkarlığı Qarğanın xoşuna gəlmirdi. Harada zibil görürdü, gətirib atırdı Dovşanın yuvasının qabağına.

Dovşan Qarğadan nə qədər xahiş edirdi ki, bu pis əməlindən əl çəksin, ancaq Qarğa onun sözlərinə məhəl qoymurdu...

Bir gün Dovşan evində oturub kök mürəbbəsi ilə çay içirdi. Birdən Qarğanın həyəcanlı qarıltısını eşitdi. Tez yuvasından çıxıb köməyə qaçdı.

Çatanda gördü ki, Tülkü Qarğanı ayağından asıb yun çubuğu ilə çırpır və deyir:

- Mən sənə göstərərəm, yeri zibilləməyin axırı necə olur?!

Qarğanın döyülməkdən tükləri dərisindən qopub ətrafa səpələnirdi. Yalvarmaqdan səsi xırıldayır, ağzından köpük gəlirdi. Tülkünün isə

ürəyi soyumurdu. Dovşan bir kolun dalına keçib gizləndi. Tülkü yorulub dincəlmək üçün yuvasına girəndə tez qaçıb Qarğanı azad etdi. Qarğa sınıq-salxaq qanadı ilə birtəhər uçub aradan çıxdı.

Qarğa yaraları sağalanda uçub Dovşanın yanına gəldi, pis əməllərinə görə üzr istədi və bir də ətrafı zibilləməyəcəyinə söz verdi. Dovşan da onu bağışladı.



## QIZIL BALIQ

*Vüqar Haqverdiyev*

Bir vardı, biri yoxdu.

Leyla adında balaca bir qız vardı. Bu qız babasını çox sevirdi. Babası da tez-tez onu görməyə gəlirdi.

Gələndə də Leyla üçün qəşəng hədiyyələr, maraqlı oyuncaqlar gətirirdi.

Bir gün baba gələndə əlində lentlə bağlanmış böyük bir qutu vardı. O, ehtiyatla bağlamanı stolun üstünə qoyub nəfəsini dərdi, sonra əllərini yumaq üçün vanna otağına keçdi.

Leyla maraqla qutuya baxırdı. İçində nə olduğunu bilmək istəyirdi. Babası isə elə bil qəsdən bir söz demirdi. Leylanın səbri çatmadı:

-Baba, ay baba, bu nə böyük qutudur?!

-Leyla bala, bu böyük qutuda çox balaca bir canlı var.

Leylanın marağı daha da artdı.

-Baba, tez ol qutunu aç, o balaca canlını görmək istəyirəm!

Baba qutunu açdı. Qutudan ağzı bağlı qəşəng bir akvarium çıxdı. Akvariumda bir balıq vardı. O, yazıq-yazıq Leylaya baxırdı. Baba dedi:

-Leyla bala, bu Qızıl balıqdır, sənin üçün almışam.

-Qızıl balıq?! -Leyla sevincindən atılıb-düşdü. -Babacan, çox sağ ol, bu ən gözəl hədiyyə oldu.

Baba balıq yemi də almışdı, akvariumun qapağını çıxardıb ondan bir çimdik suya atdı. Balıq o dəqiqə ağzını açıb yemin hamısını uddu.

-Yazıq nə yaman ac imiş! -Leyla təsirləndi.

-Leyla bala, balıqlar həmişə özlərini ac hiss edirlər, onlarda doymaq hissi olmur, nə vaxt qida görsələr, belə acgözlüklə yeyirlər. Ona görə də ona gündə iki dəfədən artıq yem vermə, yoxsa çox yeyər, qarnı partlayar.

-Oldu babacan! -Leyla babasının üzündən öpdü.

Baba gedəndə akvariumu Leylanın otağına qoydu. O gündən Leyla özünü çox xoşbəxt hiss edirdi. Axı maraqlı məşğuliyyət tapmışdı, babası deyən kimi gündə balığı yemləyir, saatlarla oturub bu gözəl varlığa tamaşa edirdi. Leyla eşitmişdi ki, qızıl balıqlar danışır. Amma onun balığı heç səsini də çıxarmırdı, qızın çoxsaylı suallarını cavabsız qoyurdu. Ancaq Leyla ümid edirdi ki, balıq danışacaq.

Bir gün Leyla gördü ki, balıq akvariumun şüşəsinə sıxılıb çox qəmgin dayanıb. Tez anasını çağırıb bunun səbəbini soruşdu. Anası dedi:

- Qızım, balıq artıq böyüyüb. Bu kiçik akvariumda darıxır, onu aparıb çaya buraxmaq lazımdır.

-Yox ana, mən də onsuz darıxıram. Babam onun üçün daha böyük akvarium alar.

-Qızım, o, azad olmaq istəyir. Balığı azad etsən, o, xoşbəxt olar.

Anasının təklifi Leylanın xoşuna gəlmədi, "Heç vaxt"-deyə düşündü. O, Qızıl balığa həmişəkindən də yaxşı qulluq edirdi, ancaq balıq daha da darıxırdı.

Leyla çox götür-qoy edirdi. Həm anasının düz dediyini görürdü, həm də balıqsız darıxacağını fikirləşirdi.

Nəhayət bir gün Leyla qərara gəldi ki, balığı azad etsin. Elə də etdi, babası ilə aparıb onu çaya buraxdı.

Balıq suya düşən kimi çayın dibinə baş vurub çıxdı. O, çox şən görünürdü, uşaqlıq dostu Tısbağanı tapmışdı. Onlar suda xeyli oynadılar,

ətrafdakı balıqlar da dostların sevincinə qoşuldu. Leyla babasına qısılıb bu gözəl mənzərəni izləyir, azadlığın necə böyük xoşbəxtlik olduğunu görürdü.

Artıq ayrılmaq vaxtı çatmışdı. Balıq Leylaya yaxın üzdü. Qız gözlərindən yaş axa-axa onunla sağollaşdı. Birdən balıq dil açıb dedi:

-Leyla, darıxma, biz yenə görüşəcəyik!

Qız heyrətdən donub qaldı. Sən demə, Qızıl balıq danışa bilirmiş... Babası nəvəsinin saçını sığallayanda qız özünə gəldi. Lakin balıq artıq yox idi, üzüb getmişdi. Leyla ürəyində ona xoşbəxtlik arzuladı, sonra babasının əlindən tutub, bir də Qızıl balıqla nə vaxt görüşəcəklərini düşünə-düşünə evlərinə yollandı.





## ANAMI İNCİTMƏRƏM

*Hüseyn Arif*

Çox mehribandır anam,
Mən də sözə baxanam.
Gəlirəm "gəl" deyəndə,
"Getmə!" desə, getmərəm.
Bunu hamı bilir ki,
Anamı incitmirəm.
Çəksə də hər qayğımı,
O əsla çəkməyir qəm.
Axı heç vaxt, heç zaman,
Anamı incitmirəm.

## TƏMİZLİK

*Abdulla Şaiq*

Səhər durunca,
Əlimdə fırça
Sildim dişimi,
Bildim işimi.
İnanmırsan bax,
Dişim ağappaq.
Üstüm tərtəmiz,
Bax, beləyik biz.

## BALACA GÜNƏŞ

*Mina Rəşid*

Yuxudan duran kimi
Hamıya gülümsəyir:
-Ata, sabahın xeyir,
-Ana, sabahın xeyir!

Yeddi yaşlı Günəşdən
Qəm qorxur, qüssə qaçır.
O, balaca günəştək
Ətrafına nur saçır.

## VƏTƏN SEVGİSİ

*Solmaz Şirin*

Vətəni çox sevirəm
Anam kimi əzizdir.
Anama və Vətənə
Məhəbbətim dənizdir.

Qucağında ananın,
Şən qoynunda Vətənin
Bəslənirik fərəhlə,
Vətən mənim, həm sənin.

Qorumasaq Vətəni,
Qalarıq biz Vətənsiz.
Yuvasız bir quş kimi
Ölərik biz Vətənsiz.

## GÖZƏL ŞUŞA

*Zahid Xəlil*

Nə gözəldi bu şəhər,
Yaşıl paltar, ağ örpək.
Çətir tutub dumandan,
Ayaqları gül-çiçək.
Bilmirəm hansı sözlə
Vəsf edim bu şəhəri?!
Kirs başının tacıdı
Qarqar gümüş kəməri.




Azadlığa çıxıbdı,
Şuşa yenə nazlanır,
Hər gülün budağında
Bülbüllər pərvazlanır.
Onun küçələrində
Gəzir dahi xilaskar.
Əziz Şuşa qurulur,
Şuşa dirçəlir aşkar.

# QIŞ

*Xanımana Əlibəyli*

Yenə qışdır, uşaqlar,
Bayırda bərk şaxta var.
Sular büllur kimidir,
Narın-narın yağır qar.

Qonaq gəlir təzə il,
Qardan paltarı çil-çil.
Yollar, çöllər, evlər ağ,
Nə gözəldir bu fəsil!



## MƏNİM ƏZİZ MÜƏLLİMİM

*Təhminə Hümbətova*

Bu gün Sizin gününüz,
Sevinc dolu bayramdır.
Qəlbimizdə hər sözünüz,
Qayğınız bizə doğmadır.

Müəllim adınızla
Daim ucalasınız.
Örnək həyatınızla
Nümunə olasınız.

Mənim gözəl müəllimim,
Təbrik edirəm Sizi.
Bircə arzum var mənim,
Qazanım sevginizi.

## BAHAR MƏNƏM

*Nəbi Xəzri*

Yaşıllaşıb düz, yoxuş,
Söylədi: - Bahar mənəm.
Uçub gəldi qaranquş,
Söylədi: - Bahar mənəm.

Çəmənə nur səpdi ay,
Ağ bulud keçdi lay-lay.
Köpüklənib daşdı çay,
Söylədi: - Bahar mənəm.

**1.** Bədəni yerdə, saqqalı göydə.
**Turp**

**2.** Axşam baxdım, çox idi,
Səhər baxdım, yox idi.
**Günəş**

**3.** Gecə çağında,
Göl qırağında,
Tapın görək nə
Edərdi qurr-qurr?
**Qurbağa**

**4.** Bir ağacım var, on iki budağı,
Hər budağın otuz yarpağı.
**İl, aylar, günlər, gecə, gündüz**

**5.** Yer altında sarı biz.
**Kök**

**6.** Yerdən çıxır ağappaq,
Başında yumru papaq.
Bağda uçar səhər-səhər,
Verər bizə yazdan xəbər.
**Qaranquş**

**7.** Aləmə işıq salır,
Axşam gül kimi solur.
**Günəş**

## LAYLALAR

A lay-lay, gülüm lay-lay,
Gülüm, bülbülüm lay-lay.
Böyü, sənin sayəndə
Mən də bir gülüm, lay-lay.

## ATALAR SÖZLƏRİ

**1.** Hər kəsə öz vətəni əzizdir.
**2.** Vətənə gəldim, imana gəldim.

## SAYMACA

İynə-iynə,
Ucu döymə.
Bal ballıca
Ballı keçi.
Şam ağacı
Satır keçi.
Qoz ağacı
Qotur keçi.
Yarıl-yırtıl
Su iç, qurtul.

Bir, iki
Bizimki.
Üç, dörd,
Qapını ört.
Beş, altı,
Daşaltı.
Yeddi, səkkiz,
Firəngiz.
Doqquz, on
Qırmızı don.

# *Təsviri fəaliyyət məşğələləri*

*(rəsm, yapma, quraşdırma, kəsib-yapışdırma)*



# RƏSM

*(17 məşğələ)*

## MƏŞĞƏLƏ 1

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Təbiət rəsmi.

**Məqsəd:** Təbiət rəsmini fəslə uyğun çəkir. Təbiət rəsmi çəkərkən uyğun rənglərdən istifadə edir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.6.** Nitqində əlamət hiss bildirən sözlərdən istifadə edir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Qruplarla iş, cütlərlə iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, hərəkətli oyun, söz assosiasiyası və s.

**Resurslar:** Fırça, karandaş, A4-kağız, şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlara ağac, su, daş, yarpaq və müxtəlif təbiətə aid olan əşyaları göstərir və deyir: -Uşaqlar, gəlin bu əşyaların adlarını deyək. Uşaqlar, bunları haradan əldə etdiyimi kim deyər?

Təbiətdə başqa nələr olur, ağac, su, günəş, torpaq olmasa, yaşamaq olar?

Təbiətin hansı fəslini daha çox sevirsiniz?

**Dərketmə mərhələsi:** Uşaqlar, təbiət rəsmini kağıza təsvir edəcəyik. Uşaqlara nümunə təqdim edilir.

**İdman dəqiqəsi:** "Gəlin oynayaq" oyunu.

Gəlin-gəlin oynayaq, (uşaqlar oynayır, hərəkətlər edir)
Çiçəklənib bağçalar,
Hop-hop-hop (əl çalıb, ayaqlar yerə vurulur)
Topumuz var ağ, sarı,
Hop-hop-hop.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə uyğun təbiət rəsmi çəkirlər.

*Oyun:* Tərbiyəçi-müəllim uşaqları qruplara bölür. Qrup-qrup ortaya dəvət edir. Uşaqların gözlərini bağlayır. Uşaqlara təbiətə aid olan əşyaları verir və onları əlləri ilə hiss edib, tapmalarını, adlarını tapmalarını istəyir (məsələn, daş, taxta parçası, yarpaq, gül, su və s.). Qrupların bütün üzvləri iştirak edir. Hansı qrup çox əşyaların adlarını tapsa, həmin qrup qalib gəlir.

## MƏŞĞƏLƏ 2

**3.1.1.** Sadə təsvirlər çəkir.

**Mövzu:** Şən uşaqlar.

**Məqsəd:** Uşaq şəkli çəkir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyun və s.

**Resurslar:** Rəngli karandaşlar, boya, ağ kağızlar, nümunə üçün şəkil, şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim duyğu orqanlarının şəkillərini lövhəyə qarışıq formada düzür: Uşaqlar, bu şəkillərin nə olduğunu kim bilir?

Duyğu orqanlarının adlarını uşaqlar sadalayır.

-Uşaqlar, duyğu orqanlarımızdan biri olmazsa, nə baş verər? Gəlin öz üzərimizdə və gəlinciyin üzərində duyğu orqanlarımızı göstərək.

-Uşaqlar, biz sevinərkən, sevincli olarkən nə edirik? Gülümsəyirik. Gəlin birlikdə gülümsəyək.

**Dərketmə mərhələsi:** Uşaqlar birlikdə gülümsədi. -Gəlin, şən uşaq rəsmini ağ kağızda təsvir edək.

Uşaqlar gülən uşaq və ya uşaqların şəklini çəkirlər. Tərbiyəçi-müəllim uşaqlara köməklik göstərir.

-Uşaqlar, gəlin baxaq, görək şəklinizi çəkərkən heç bir duyğu orqanını unutmamışıq ki? Uşaqların rəsmləri təqdim olunur.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara şəkilli kartlar paylayır. Həmin kartlar üç-dörd hissəyə bölünmüş insan şəkilləridir. Uşaqlar onları birləşdirib bütöv bir hala gətirməlidir. Şəkli tez yığanlar qalib gəlir.

## MƏŞĞƏLƏ 3

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Payız ağacı.

**Məqsəd:** Payız ağacının rəsmini çəkir. Payız fəslinə uyğun rənglərdən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, tap-tapmaca.

**Resurslar:** Şəkilli kartlar, nümunə, karandaşlar, ağ kağız və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, qapının yanında bir qutu tapdım. Üstündə də bir məktub var. Gəlin oxuyaq. Bu tapmacanın cavabını kim tapsa, demək, qutuda nə olduğunu bilir.

*Bağda sürünər, gəzər,*
*Az-az görünər, gəzər.*
*Oxşayır bir yumağa,*
*Qorxuram əl vurmağa.*

**(Kirpi)**

Tərbiyəçi-müəllim qutudan kirpi çıxarır. Kirpinin üstündə sarı yarpaqlar, göbələk və alma var. -Ay uşaqlar, sizcə, kirpi hansı fəsildən gəlib?

-Payız.

-Haradan bildiniz? Üstündə nələr var?



**Dərketmə mərhələsi:** Uşaqlar, kirpi payız ağacının altında yatdığı üçün iynələrinə sarı yarpaqlar, payız meyvəsi olan alma və göbələk yapışıb.

Gəlin bu gün payız ağacı rəsmini çəkək. Tərbiyəçi-müəllim nümunə göstərir və izah edir.

**İdman dəqiqəsi:** Qollarını açıb-bağlayaraq barmaqlarını bir-bir bükür.

*Gəzdik biz bağı,*
*Yığdıq yarpağı.*
*Palıd yarpağı,*
*Çinar yarpağı.*
*Fındıq yarpağı,*
*Qoz yarpağı.*

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə uyğun payız ağacı rəsmi çəkirlər. Rəsmlər təqdim olunur.

Uşaqların qarşısına çoxlu payız yarpaqları qoyur. Uşaqlar eyni ağacın yarpaqlarını tapıb qruplaşdırmalıdır.

## MƏŞĞƏLƏ 4

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Ev heyvanları. Qoyun.

**Məqsəd:** Qoyun şəklini çəkir.

Qoyun şəkli çəkərkən uyğun rənglərdən istifadə edir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Fərdi iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, rollu oyun və s.

**Resurslar:** Karandaşlar, boya, ağ kağız, nümunə və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar stolun üstündə yun, süd, müxtəlif ev heyvanları maketi görürlər.

Tərbiyəçi-müəllim deyir:

-Uşaqlar, nənə bizə çoxlu döşəkçələr tikmək istəyir. Fikirləşir ki, döşəyin içinə nə doldursun?

-Uşaqlar, kim deyər, döşəyin içinə nənələr nə qoyub tikir?

-Yun.

-Yunu hansı heyvandan əldə etmək olur?

Qoyun ev, yoxsa çöl heyvanıdır?

**Dərketmə mərhələsi:** Gəlin, çoxlu qoyun şəkli çəkək. Nənə döşəkçələr tikmək üçün çoxlu yun əldə etsin. Tərbiyəçi-müəllim nümunə şəkli uşaqlara göstərir. Qoyun şəklini necə çəkməyi uşaqlara izah edir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəlliminköməkliyi ilə uşaqlar qoyun şəkli çəkirlər.

"Heyvanları ayıraq".

Ev şəklinin yanına ev heyvanlarını, meşə şəklinin yanına çöl heyvanlarını yığın. Heyvanların adını deyin.

# MƏŞĞƏLƏ 5

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Vitaminli qidalar. Kök, alma.

**Məqsəd:** Vitaminli qidaları sulu boya ilə çəkir. Təsvir alətlərindən təyinatına uyğun istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, oyunlar, suallar və s.

**Resurslar:** Karandaşlar, boya, ağ kağız, nümunə, şəkilli kartlar, oyuncaqlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlardan biri satıcı, biri isə alıcı olur. Satıcı müxtəlif meyvə və tərəvəzlər satır.

-Uşaqlar, gəlin bazardan vitaminli qidalar alaq.

Uşaqlar bir-bir gedir satıcıdan müxtəlif meyvə və tərəvəzlər alırlar.

-Uşaqlar, aldıqlarımızın bizə nə kimi faydaları var? Biz meyvə və tərəvəz yeməsək, nə olar və s.

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin vitaminli qidalardan ən dadlı olan alma və yerkökünün rəsmlərini çəkək. Tərbiyəçi-müəllim nümunə şəklini uşaqlara göstərir, daha sonra özü çəkir, çəkmə qaydasını uşaqlara izah edir. Sulu boya ilə iş qaydaları müəyyən edir. Hansı rəngdən istifadə edəcəklərini uşaqlardan soruşur.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin köməkliyi ilə rəsmlər çəkilir. Uşaqlara təqdim olunur.

-Uşaqlar, əlimdə müxtəlif meyvə və tərəvəz rəsmləri və ya fiqurları var. Mən sizə həmin qida haqqında ona aid olan əlamətləri deyəcəyəm. Siz ona uyğun cavab verəcəksiniz, daha sonra şəkli göstərəcəyəm. Kim düz tapsa, o, qalib sayılsın.

# MƏŞĞƏLƏ 6

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Nəqliyyat vasitəsi. Avtobus rəsmi.

**Məqsəd:** Avtobus rəsmini çəkir. Təsvir alətlərindən təyinatına uyğun istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.2.** Əşyalar və sadə süjetli şəkillər üzrə danışır.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, sujetli-rollu oyun, suallar və s.

**Resurslar:** Karandaşlar, boya, ağ kağız, nümunə, şəkilli kartlar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar meşə heyvanlarını görmək üçün istəyirlər ki, meşəyə getsinlər. Ancaq yolları çox uzaqdı. -Ay uşaqlar, görəsən, onlar birlikdə nə ilə meşəyə gedə bilərlər? -Avtobusla. Tərbiyəçi-müəllim heyvan oyuncaqların yanına avtobus oyuncağı qoyur. -Gəlin baxaq, bu heyvanlara avtobusda oturacaq yerlər çatar? Uşaqlar, avtobusda nə qədər adam gedir? Heç avtobusda yol getmisiniz?

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin heyvanlarımız üçün avtobus rəsmini çəkək. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Uşaqlar musiqi sədaları altında sıra ilə bir-birinin ardınca avtobusda yolu gedirlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar avtobus rəsmini tərbiyəçi-müəllimin köməkliyi ilə nümunəyə uyğun çəkir.

*Oyun:* Stullardan avtobus oturacaqları düzəldirlər. Qarşıda sürücü, arxada sərnişinlər əyləşir. Avtobusa yaşlı və ya özündən böyük minərkən necə davranmağı öyrənirlər.

## MƏŞĞƏLƏ 7

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Meşə heyvanı. Ayı.

**Məqsəd:** Ayı şəklini çəkərkən uyğun rənglərdən istifadə edir. Təsvir alətlərindən təyinatına uyğun istifadə edir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və ya nağılları danışır.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, rollu-sujetli oyun və s.

**Resurslar:** Karandaşlar, boya, ağ kağız, nümunə, şəkil və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, bizim üç ayı oyuncağımız var. Ayılara yemək verməliyik. Onlara boşqab paylamalıyıq, gəlin mənə kömək edin. Ayıların boyuna uyğun boşqab paylayaq.

-Uşaqlar, ayı necə heyvandır? Harada yaşayır? Qışda ayı nə edir?

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin ayı rəsmi çəkək.

Tərbiyəçi-müəllim ayını necə rahat çəkə biləcəklərini öyrədir. Nümunə göstərir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə uyğun tərbiyəçi-müəllimin köməkliyi ilə ayı rəsmini çəkirlər. Uşaqların işləri təqdim olunur. Onlar bir-birini alqışlayırlar.

-Uşaqlar, meşədə qarın üstündə müxtəlif heyvanlar gəzir. Onların ayaq izləri qarın üstünə düşür. Gəlin izlərin içindən ayının ayaq izini tapaq.

## MƏŞĞƏLƏ 8

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Bayraq rəsmi.

**Məqsəd:** Bayraq rəsmini çəkir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə və s.

**Resurslar:** Şəkil, bayraq, karandaşlar, boya, nümunə və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, Vətənimiz haradır? Azərbaycanın atributları hansılardır? Paytaxtımız haradır? Bayrağımızın neçə rəngi var və hansılardır?

**Dərketmə mərhələsi:** Uşaqlara Azərbaycan Respublikasının Bayrağını çəkmək təklif olunur. -Uşaqlar, gəlin birlikdə böyük bayrağımızı rəngləyək və qrup otağımızda saxlayaq.

**İdman dəqiqəsi:** Uşaqlar əllərində Azərbaycan Respublikasının Bayrağı ilə sırada addımlayırlar.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar bayrağı rəngləyir. Tərbiyəçi-müəllim uşaqlarla birlikdə "Himn"i səsləndirirlər.

## MƏŞĞƏLƏ 9

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Qış ağacı.

**Məqsəd:** Qışa aid təsvirlər çəkərkən fəslə uyğun rənglərdən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, cütlərlə iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, suallar və s.

**Resurslar:** Karandaşlar, boya, nümunə, şəkil, ağac budağı və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, bu ağaca baxın. Uşaqlar, ağacın üstündə nə durur?

Ancaq bu ağacın üstündə heç nə yoxdur. Uşaqlar, ağacın üstündə niyə yarpaq yoxdur?

-Uşaqlar, qış fəslində ağacların yarpaqları harada olur? Bəs ağacda nə olur?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim qış ağacını çəkməyi təklif edir. Uşaqlara nümunəyə baxaraq necə çəkəcəklərini izah edir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin köməkliyi ilə uşaqlar ağac şəklini çəkirlər. Şəkillər uşaqlara təqdim olunur. -Uşaqlar, gəlin ağacımızı pambıqlarla bəzəyək. Sanki ağacımıza qar yağıb.

# MƏŞĞƏLƏ 10

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** "Qoğal" nağılı. Qoğalın rəsmi.

**Məqsəd:** Rəngli karandaşları təyinatına görə istifadə edir. "Qoğal" nağılından bir hissəni təsvir edir. Qoğalı çəkərkən uyğun rənglərdən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.2.** Əşyaları sadə sujetli şəkillər üzrə danışır.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, nağıletmə və s.

**Resurslar:** Texniki vasitə, şəkillər, boya, karandaşlar, ağ kağız və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim "Qoğal" nağılını səsli olaraq uşaqlara izlədir. Uşaqlara nağılı diqqətlə izləmələri təklif olunur. Sonda tərbiyəçi-müəllim sual verir: -Uşaqlar, nağılda baş qəhrəman hansı idi?

-Qoğal hansı formadadır? Nə rəngdədir?

**Dərketmə mərhələsi:** Uşaqlar, nağılda daha hansı personajlar var idi? Niyə qoğalı yemək istəyirdilər?

- Uşaqlar, tülkü hiyləgərliklə nağıldakı qoğalı yedi. Nəvə ilə baba ac qalmasın deyə gəlin qoğal şəkli çəkək və nənə ilə babanı sevindirək.

Tərbiyəçi-müəllim uşaqlara lazım olan alətləri paylayır. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin nümunəsinə uyğun şəkil çəkilir.

- Uşaqlar, gəlin "Qoğal" nağılındakı personajların şəkillərini seçək və sıra ilə qoğalın hansı heyvanlarla qarşılaşdığını lövhəyə düzək.

# MƏŞĞƏLƏ 11

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Yolka ağacı və qardan adam.

**Məqsəd:** Yolka ağacı və qardan adamı təsvir edir. Yolka ağacı və qardan adamı təsvir edərkən uyğun rəngləri seçir və istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyalar və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.2.** Əşyaları sadə sujetli şəkillər üzrə danışır.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyun və s.

**Resurslar:** Karandaşlar, boya, ağ kağız, əşyalar, nümunə və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim: Uşaqlar, qapının yanından bir torba tapmışam. Gəlin baxaq görək, torbada nə var? Tərbiyəçi-müəllim torbanı açır, içindən yolka oyuncaqları çıxır. -Uşaqlar, yolka oyuncaqlarını kim qoyub, görən? Yolka oyuncaqları ilə gəlin yolkamızı bəzəyək. Yolkanı tərbiyəçi-müəllim uşaqlarla birgə bəzəyir, yanına qar adam qoyurlar.

**Dərketmə mərhələsi:** -Uşaqlar, gəlin bəzədiyimiz yolkanın şəklini çəkək.

**İdman dəqiqəsi:** Barmaqlar üçün gimnastika: "Çiçəklər".

*Bizim qəşəng çiçəklər*
*Ləçəklərin açırlar.*

(Barmaqları bir-birinə sıxıb, ovuca doğru bükərək tutmaq, sonra yavaş-yavaş açmaq).

*Külək bir az əsəndə*
*Ləçəklərin bağlayır.*

(Barmaqları sağa və sola tərəf tərpətmək).

*Günəş batan zaman o,*
*Ləçəklərin bağlayır.*

(Tədricən barmaqları ovuca doğru yumurlar).

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə uyğun şəkili çəkirlər. Uşaqlar bir-birinin şəklinə baxırlar və dəyərləndirirlər. -Uşaqlar, gəlin qrup otağımızı yeni il bayramı üçün bəzəyək.

## MƏŞĞƏLƏ 12

**3.1.1.** Sadə təsvirlər çəkir.
**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.
**Mövzu:** 8 Mart. Gül dəstəsi.
**Məqsəd:** Gül dəstəsini təsvir edərkən uyğun rənglərdən istifadə edir.
**İnteqrasiya: 2.1.2.** Əşyaları sadə sujetli şəkillər üzrə danışır.
**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.
**İş forması:** Fərdi iş, kollektiv iş.
**Üsullar:** Əqli hücum, suallar, rollu oyunlar.
**Resurslar:** Karandaşlar, boya, ağ kağızlar, nümunə.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlara "Ana" şeirini deyir. -Uşaqlar, anamıza nə arzulamaq istərdiniz? Ona nə hədiyyə vermək istərdiniz?

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin anamıza, nənələrimizə, bacılarımıza hədiyyə vermək üçün "Gül dəstəsi" rəsmi çəkək.

**İdman dəqiqəsi:** Barmaq gimnastikası edirlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə uyğun gül dəstəsi rəsmini çəkirlər.



Tərbiyəçi-müəllim uşaqları rəğbətləndirir.

-Uşaqlar, evə gedərkən anamızı, bacımızı, nənəmizi necə təbrik edəcəyik? Uşaqlardan biri əlində rəsmini çəkdiyi "Gül dəstəsini" anasına necə təqdim edəcəyini, necə təbrik edəcəyini deyir. Uşaqlar bir-bir öz təqdimatını edir.

## MƏŞĞƏLƏ 13

**3.1.1.** Sadə təsvirlər çəkir.
**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.
**Mövzu:** Yaz fəsli.
**Məqsəd:** Yaz fəslini təsvir edir. Uyğun rənglərdən istifadə edir.
**İnteqrasiya: 2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.
**1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.
**İş forması:** Fərdi iş, qruplarla iş, cütlərlə iş.
**Üsullar:** Əqli hücum, suallar, müzakirə.
**Resurslar:** Karandaşlar, boya, ağ kağızlar, nümunə, şəkilli kartlar.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara qaranquş yuvasını göstərir. -Baxın, uşaqlar, qaranquşlar qonaq gəlib bağçamıza, yuva qurub. Uşaqlar, qaranquşlar hansı fəslin müjdəçisidir. Qaranquşlar isti ölkələrdən nə zaman gəlir?
**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara yaz fəsli şəklini göstərir.
**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.
**Tətbiqetmə mərhələsi:** Uşaqlar, birlikdə yaz fəslinin şəklini çəkək. Uşaqlar nümunəyə uyğun yaz fəslini təsvir edirlər. Uşaqların şəkli dəyərləndirilir.
Tərbiyəçi-müəllim fəsillərə aid bir cümlə işlədir. Uşaqlar hansı fəslə aid olduğunu tapırlar. Məsələn: Ağaclar nə zaman çiçək açır? -Yaz fəslində.

## MƏŞĞƏLƏ 14

**3.1.1.** Sadə təsvirlər çəkir.
**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.
**Mövzu:** Arzuladığım ev.
**Məqsəd:** Arzuladığı ev rəsmini çəkir.
Ev rəsmi çəkərkən uyğun rənglərdən istifadə edir.
**İnteqrasiya: 2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.
**İş forması:** Qruplarla iş, fərdi iş.
**Üsullar:** Əqli hücum.
**Resurslar:** Karandaşlar, boya, ağ kağızlar, nümunə, şəkillər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim kublardan düzəldilmiş bir evi uşaqlara göstərir və deyir: -Uşaqlar, bu, gəlinciyimizin evidir. Gəlincik bu evi çox sevir. Uşaqlar, sizin xoşladığınız ev varmı? Evinizin necə olmağını istəyərdiniz?

**Dərketmə mərhələsi:** Uşaqlar, hər kəs öz arzuladığı evin şəklini çəkəcək. Kim necə ev xoşlayırsa, o evi təsvir etsin.

**İdman dəqiqəsi:** Barmaq gimnastikası.

*Yığışdıq bizim evə,*
*Dovşan, keçi, qaz, dəvə.*
*Qızıl xoruz çaldı saz,*
*Nəğmə oxudu "Naz-Naz".*

(Barmaqlarını bir-bir qatlayırlar).
**Tətbiqetmə mərhələsi:** Uşaqlar sevdikləri ev rəsmini çəkirlər.
Tərbiyəçi-müəllim uşaqlardan soruşur:
-Siz çəkdiyiniz bu evdə kimlərlə yaşamaq istərdiniz?
Uşaqlar birlikdə kublardan böyük bir ev qururlar.

## MƏŞĞƏLƏ 15

**3.1.1.** Sadə təsvirlər çəkir.
**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.
**Mövzu:** Balıqlar.
**Məqsəd:** Balıqları təsvir edir. Balıqların şəklini çəkərkən sevdiyi rənglərdən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**4.2.3.** Problemin həllində iştirak edir.
**İş forması:** Fərdi iş, qruplarla iş.
**Üsullar:** Əqli hücum, tap-tapmaca, oyunlar, söz assosiyası.
**Resurslar:** Karandaşlar, boya, ağ kağızlar, nümunə və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara deyir: Uşaqlar, burada oyuncaqlar var idi, ancaq onları indi tapa bilmirəm. Tərbiyəçi-müəllim axtarır, daha sonra dəsmalı qaldırır, akvariumun içində oyuncaq balıqlar var. Oyuncaqları tapdım. -Uşaqlar, bu bilirsiniz nədir? Akvariumun içində nə var? Balıqlar harada yaşayır? Balığı sudan çıxartsaq, nə olar və s.

**Dərketmə mərhələsi:** Uşaqlar, sevdiyiniz rəngdə balıqlar çəkə bilərsiniz. Tərbiyəçi-müəllim uşaqlara nümunələr təqdim edir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin köməkliyi ilə uşaqlar balıq şəkli çəkirlər. Uşaqların rəsmləri təqdim olunur, rəğbətləndirilir. Tərbiyəçi-müəllim stolun üstünə müxtəlif rəngli balıqlar qoyur. Uşaqlar böyük balığı götürür, onun rənginə uyğun kiçik balığı tapır.

## MƏŞĞƏLƏ 16

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Çəmənlikdə çiçəklər.

**Məqsəd:** Çiçəklərin şəklini çəkir. Çəmənlikdə çiçəklərin rəsmini çəkərkən uyğun rənglərdən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Karandaşlar, boya, ağ kağızlar, nümunə və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim qrupa balaca qab, torpaq, gül gətirir. -Uşaqlar, gəlin birlikdə bu gülləri torpağa əkək. Uşaqlar gülləri tərbiyəçi-müəllimin köməkliyi ilə əkirlər.

**Dərketmə mərhələsi:** Uşaqlar "Çəmənlikdə çiçəklər"i nümunəyə uyğun ağ kağız üzərində boya ilə təsvir edirlər.

**İdman dəqiqəsi:** Barmaq gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim müxtəlif güllərin şəkillərini göstərir. Onların hansılarının çəmənlikdə, hansılarının dibçəkdə olduğunu ayırırlar.

## MƏŞĞƏLƏ 17

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**Mövzu:** Yay fəsli.

**Məqsəd:** Yay fəslini təsvir edir. Təsvir alətlərindən düzgün istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**İş forması:** Fərdi iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar.

**Resurslar:** Karandaşlar, boya, ağ kağızlar, nümunə və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim lövhəyə bir gül yapışdırır, gülün ləçəklərinə yay fəslinə aid şəkillər yapışdırır. -Uşaqlar, bu şəkildə nələr görürsünüz? Bunlar hansı fəslə aiddir?

**Dərketmə mərhələsi:** Uşaqlar yay fəslinin nümunəsinə baxaraq, fəsli təsvir etməyə çalışırlar. Uşaqların rəsmləri təqdim olunur.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Sərbəst yay sujeti çəkirlər.

# YAPMA

*(17 məşğələ)*

## MƏŞĞƏLƏ 1

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir.

**Mövzu:** Göy qurşağı.

**Məqsəd:** Göy qurşağını düzəldərkən uyğun rənglərdən istifadə edir. Gigiyena qaydalarına riayət edərək verilmiş nümunəyə uyğun göy qurşağını düzəldir.

**İnteqrasiya: 1.2.3.** Sadə özünəxidmət bacarıqlarını (əllərini özü yuyur, soyunur, geyinir), fəaliyyətini ardıcıllıqla (ayaqqabılarının bağını açıb-bağlayır, paltarını düymələyir) yerinə yetirir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Kollektiv iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar.

**Resurslar:** Plastilin, taxta lövhə, nümunə, şəkillər, nəm salfetlər.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqların qoluna göy qurşağının rənglərində lent bağlayır. Həmin uşaqlar yan-yana dayanır, qollarını qaldırır.

-Uşaqlar, burada hansı rəngləri tanıyırsınız? Uşaqlar, yağış yağır, daha sonra gün çıxır, bunlar təbiət hadisələri adlanır. Günəş çıxarkən göy qurşağı çıxır, sanki buludları bəzəyir. Göy qurşağının 7 rəngi var.

**Dərketmə mərhələsi:** Uşaqlara taxta lövhə, rəngli plastilinlər paylanılır. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, oyun xəmirindən uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Nümunəyə uyğun uşaqlar göy qurşağını plastilinlə düzəldirlər. Tərbiyəçi-müəllim əvvəlcədən plastilinlə hansı formada işləyəcəklərini öyrədir. Uşaqların işləri dəyərləndirilir.

Uşaqlara rəngli lentlərlə göy qurşaqları düzəltməkləri təklif olunur.

Uşaqlar lentləri göy qurşağının rənglərinə uyğun sıra ilə uclarından tutub yan-yana düzülürlər. Sonda göy qurşağı alınır.

## MƏŞĞƏLƏ 2

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir.

**Mövzu:** Kəpənək.

**Məqsəd:** Kəpənək haqqında məlumat verir. Gigiyena qaydalarına riayət edərək kəpənəyi yapır.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək: əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**İş forması:** Fərdi iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, tap-tapmaca, müzakirə.

**Resurslar:** Rəngli plastilinlər, nümunə, taxta lövhə, nəm salfet və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** *Rəngbərəngdir gül kimi,*
*Qanadı var tül kimi.*
*Uçur bağda, bağçada,*
*Çox yüngüldür tük kimi.*
**(Kəpənək)**

-Uşaqlar, bu tapmacanın açmasını kim tapar? Siz kəpənək görmüsünüz, hansı rənglərdə görmüsünüz? Kəpənək hansı fəsillərdə olur?

**Dərketmə mərhələsi:** Uşaqlar, kəpənəkləri sevirsiniz? Hər kəs özü sevdiyi rəngdə kəpənək düzəltsin. Tərbiyəçi-müəllim nümunəyə uyğun uşaqlara plastilinlə necə işləməyi, ovuc içində plastilini necə uzunsov etməyi göstərir.

**İdman dəqiqəsi:** "Bura bir quş qondu". Barmaqların gimnastikası oyunu.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə uyğun kəpənəyi düzəldirlər. -Uşaqlar, düzəltdiyimiz kəpənəkləri kəsib-yapışdırma məşğələmizdə düzəltdiyimiz güllərin üstünə yapışdırırıq.

## MƏŞĞƏLƏ 3

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqlarını nümayiş etdirir.

**Mövzu:** Payız ağacı.

**Məqsəd:** Payız ağacını plastilində düzəldərkən uyğun rənglərdən istifadə edir. Payız ağacı düzəldərkən plastilin iki-üç hissəyə bölüb düzəldir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, cütlərlə iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, nəm salfetlər.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim 4 fəslə uyğun ağacları uşaqlara göstərir. -Uşaqlar, indi hansı fəsildir? Payız fəslinə uyğun ağac hansıdır? Siz nədən bilirsiniz ki, seçdiyiniz ağac payız fəslinə aiddir? Payızda daha hansı hadisələr olur? Gəlin birlikdə yada salaq.

**Dərketmə mərhələsi:** Uşaqlara tərbiyəçi-müəllim nümunəni nümayiş etdirir və özü lövhədə payız ağacını plastilinlə necə düzəldəcəklərini göstərir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar payız ağacını taxta lövhədə düzəldirlər. Tərbiyəçi-müəllim uşaqların işlərini nümayiş etdirir və rəğbətləndirir.

-Uşaqlar, yarpaqların içindən payıza uyğun olanı seçin və ağacın üstünə yapışdırın.

# MƏŞĞƏLƏ 4

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqlarını nümayiş etdirir.

**Mövzu:** Meyvələr. Nar.

**Məqsəd:** Nar düzəldərkən uyğun rəngdən istifadə edir.

Yapma əməliyyatının ardıcıllığını müəyyən edir. Nar yapır.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**İş forması:** Fərdi iş, qruplarla iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, nəm salfet və s.



**Məşğələnin gedişi**

**Motivasiya:** Uşaqlar, bu torbada bir meyvə var. Baxmadan əlinizi torbaya salın, əlinizi meyvənin üstündə gəzdirin və hansı meyvə olduğunu tapın.

Ən sonda meyvəni torbadan çıxaracağam. Görək kim bu meyvənin adını düz deyər.

Uşaqlar oyunu oynayırlar. Cavablarını deyirlər.

**Dərketmə mərhələsi:** Uşaqlar lövhədə nümunəyə baxırlar. Tərbiyəçi-müəllim narı uşaqlara göstərir və onu plastilinlə ovcunun içində necə yumrulayıb düzəldəcəklərini göstərir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar narı düzəldirlər. Tərbiyəçi-müəllim uşaqların işlərini rəğbətləndirir.

-Uşaqlar, səbətdəki meyvələri və tərəvəzləri adlandıraq. Tərəvəzləri bir tərəfə, meyvələri bir tərəfə yığaq.

## MƏŞĞƏLƏ 5

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqlarını nümayiş etdirir.

**Mövzu:** Ev heyvanı. Pişik.

**Məqsəd:** Pişik haqqında sualları cavablandırır.

Pişiyi düzəltmək üçün plastilini hissələrə bölərək fiqurlar düzəldir.

Gigiyena qaydalarına riayət edir.

**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək: əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, şəkillər, nəm salfetlər və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, bu oyuncaqlara diqqətlə baxın, bunları ümumi olaraq necə adlandırmaq olar? Heyvanları adlandıraq. Uşaqlar, ev heyvanlarını adlandıraq. Uşaqlar, hansı ev heyvanını sevirsiniz? Pişiyi sevirsinizmi? Pişiklər necə səs çıxardır? Pişiklərdən ən çox hansı heyvanlar qorxur?

**Dərketmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxırlar. Tərbiyəçi-müəllim uşaqlara plastilini hissələrə bölüb, ovcunun içində necə yumrulayacağını göstərir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Nümunəyə baxaraq nümunədə olan hissələri birləşdirib, pişik düzəldirlər. Tərbiyəçi-müəllim uşaqların işlərini dəyərləndirir və nümayiş etdirir.

*Oyun:* "Pişik və siçanlar". Uşaqlardan biri pişik, digərləri siçan olur. Siçanların evi otaqların küncündə olur.

*Gəzir həyətdə pişik,*
*İçir süd, yeyir pendir.*
*Baxır o yana, bu yana,*
*Fikir verir hər yana.*

Pişik o tərəf, bu tərəfə baxır, siçanlar otaqda gəzinirlər. Siçanları tutmağa çalışır. Siçanların dalınca pişik qaçır. Əgər siçanlar evlərinə girə bilməsələr, pişik onları tutub öz evinə aparır.

## MƏŞĞƏLƏ 6

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqlarını nümayiş etdirir.

**Mövzu:** Qış fəsli.

**Məqsəd:** Qış fəsli haqqında məlumat verir.

Təsvir alətlərindən təyinatına uyğun istifadə edir.

Gigiyena qaydalarına riayət edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, qruplarla iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, şəkillər, nəm salfetlər və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, ildə neçə fəsil var? Hansı fəsli daha çox sevirsiniz? Uşaqlar, sizə fəsillərə aid cümlələr deyəcəyəm. Siz dediklərimin hansı fəslə aid olduğunu deyəcəksiniz? Sonda kim çox cavab versə, o qalib gələcək.

-Uşaqlar, indi hansı fəsildir? Qış fəslini ən çox niyə sevirsiniz?



**Dərketmə mərhələsi:** Uşaqlar nümunəyə baxır. Tərbiyəçi-müəllim qış fəslini düzəltməyi uşaqlara göstərir. Bir şam ağacı, qardan adam, yerdə ağ plastilinlə qar və s. düzəldir.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə uyğun sujeti düzəldir. -Uşaqlar, hər kəs qış fəslinə aid bir cümlə işlədəcək və qarşısındakı kartların içindən qışa aid şəkil tapıb göstərəcək.

## MƏŞĞƏLƏ 7

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqlarını nümayiş etdirir.

**Mövzu:** Yolka ağacı.

**Məqsəd:** Yolka ağacını düzəldərkən uyğun rəngdən istifadə edir. Gigiyena qaydalarına riayət edərək yolka ağacı yapır.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, şəkillər, nəm salfet və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara qrupda yolka ağacı qurarkən ona kömək etmələrini təklif edir.

Uşaqlar tərbiyəçi-müəllim ilə birlikdə qrupda yolka ağacı qururlar.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Barmaq gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə uyğun yolka ağacı düzəldirlər. Tərbiyəçi-müəllim uşaqların işini rəğbətləndirir. Uşaqlar qurduqları yolka ağacının ətrafında şənlik edirlər.

## MƏŞĞƏLƏ 8

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Səbət.

**Məqsəd:** Səbəti düzəldərkən uyğun rəngdən istifadə edir.

Təsvir alətlərindən təyinatına uyğun istifadə edir.

Gigiyena qaydalarına riayət edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.
**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.
**İş forması:** Fərdi iş, qruplarla iş.
**Üsullar:** Əqli hücum, suallar, oyun və s.
**Resurslar:** Rəngli plastilin, taxta lövhə, nümunə, nəm salfet və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Uşaqlar, Qırmızıpapağın anası qoğal bişirib ki, onu nənəsinə aparsın, lakin Qırmızıpapaq bilmir ki, qoğalları nə ilə nənəsinin yanına aparsın. Uşaqlar, biz Qırmızıpapağa köməklik göstərməliyik. Uşaqlar, bəlkə, səbət düzəldək?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim səbətin nümunəsini uşaqlara göstərir. Daha sonra onu necə düzəldəcəklərini uşaqlara öyrədir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar plastilindən bir neçə hissə düzəldir. Daha sonra hissələri birləşdirərək düzəldirlər.

Uşaqların işi rəğbətləndirilir.

-Uşaqlar, qarşınızda müxtəlif şəkil kartları var. Siz onların içindən səbətdən istifadə edərək daşıya biləcəyiniz şəkli seçəcəksiniz.



## MƏŞĞƏLƏ 9

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Tərəvəzlər. Xiyar.

**Məqsəd:** Tərəvəzləri meyvələrdən ayırır. Xiyar düzəldərkən uyğun rəngdən istifadə edir. Tərəvəzləri düzəldir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar və s.

**Resurslar:** Rəngli plastilin, taxta lövhə, nümunə, şəkilli kart, nəm salfet və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, dovşanın qonaqları var: ayı, tülkü. Dovşan onlara salat düzəltmək istəyir. Biz dovşana köməklik göstərək. Səbətin işində meyvə və tərəvəzlər var. Uşaqlar, salat meyvədən, yoxsa tərəvəzdən olur? Əgər tərəvəzdən olursa, gəlin səbətdən tərəvəzləri seçməyə dovşana kömək edək: xiyar, pomidor, kök, kələm.

**Dərketmə mərhələsi:** Uşaqlar, tərəvəzlərin içindən yaşıl olanı seçək: xiyar, kələm.

- Gəlin xiyarı plastilinlə düzəldək.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə uyğun xiyarı düzəldirlər.

- Uşaqlar, düzəltdiyiniz xiyarları səbətə yığaq, verək dovşana, dovşan sizə təşəkkür edəcək. Dovşan öz qonaqlarına salat düzəldər.

## MƏŞĞƏLƏ 10

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Güllər.

**Məqsəd:** Yapma əməliyyatının ardıcıllığını müəyyən edir.

Təsvir alətlərindən təyinatına görə istifadə edir.

Güllər yapır.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, nağıletmə, oyunlar və s.

**Resurslar:** Rəngli plastilin, taxta lövhə, nümunə, şəkillər, güllər, nəm salfet.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, analarımızın bayramında ona nə hədiyyə etmək istərdiniz? Onlar ən çox nəyi sevirlər? Siz rəngli güllər düzəldin, ananıza bayramda hədiyyə edin.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Gigiyena qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə baxırlar. Tərbiyəçi-müəllimin yardımı ilə arzuladıqları rəngdə güllər düzəldirlər. Uşaqların işləri nümayiş olunur. Tərbiyəçi-müəllim onları rəğbətləndirir. Uşaqlar, rəngli gülləri kölgələri ilə birləşdirin.

## MƏŞĞƏLƏ 11

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Zürafə.

**Məqsəd:** Zürafə haqqında qısa məlumat verir. Bir-üç hissədən ibarət fiqurları birləşdirərək plastilindən zürafə düzəldir.

**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək: əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli plastilin, taxta lövhə, nümunə, oyuncaq, nəm salfet və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim əlində bir sehrli torbanı uşaqlara göstərir.

-Uşaqlar, bu torbanın içində nələrin olduğunu bilmək üçün sizə suallar verəcəyəm? Meşədə, səhrada yaşayırlar, vəhşidirlər.

Uşaqların cavabı.

Uşaqlar, əlinizi torbanın içinə salın və oradakı heyvanları əlinizlə hiss edin. Ən uzun heyvanı torbadan çıxarın. Uşaqlar zürafəni torbadan çıxarır.

Uşaqlar zürafə haqqında məlumat verirlər.



**Dərketmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxırlar. Tərbiyəçi-müəllim yenidən uşaqlara zürafəni necə düzəltməyi göstərir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar plastilinlə zürafəni düzəldirlər.

Tərbiyəçi-müəllim uşaqlarla tədqiqat aparır. Heyvanları yan-yana düzür. Onların kölgələrinə baxmalarını deyir. Uşaqlar hər heyvanın kölgəsinin özündən uzun olduğunu görürlər. Ən uzun heyvanın zürafə olduğunu öyrənirlər.

## MƏŞĞƏLƏ 12

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Sevdiyim konfetlər.

**Məqsəd:**. Rəngli plastilindən konfet yapır.

Gigiyena qaydalarına əməl edir.

**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək: əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə.

**Resurslar:** Rəngli plastilin, taxta lövhə, nümunə, konfetlər, nəm salfet və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar gülən və ağlayan diş şəkli görür.

-Uşaqlar, siz xeyirli və zərərli qidaların hansılar olduğunu bilirsiniz? Biz əgər xeyirli qidaları çox qəbul etsək, dişlərimiz qaralmaz, lakin zərərli qidalar qəbul etsək, dişlərimiz çürüyər.

Uşaqlar xeyirli qidaları gülən dişin yanına, zərərli qidaları ağlayan dişin yanına qoyurlar. Əgər biz konfetləri çox yesək, dişlərimiz çürüyər. Ona görə konfetləri yalnızca çay içərkən yemək lazımdır.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə uyğun konfetləri plastilindən düzəldirlər.

Tərbiyəçi-müəllim rəngarəng maket konfetləri uşaqların qarşısına qoyur. Konfetləri rənginə uyğun seçmələrini deyir.

## MƏŞĞƏLƏ 13

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Maşın.

**Məqsəd:** Uyğun rəng seçir.

Bir neçə hissədən ibarət maşın yapır.

**İnteqrasiya: 2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar, tap-tapmaca və s.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, maşınlar.

### Məşğələnin gedişi

**Motivasiya:** *O nədir ki, su içir,*
*Yağ içir, benzin içir.*
*Səhər-axşam yollardan*
*Sürətlə ötüb-keçir.*

**(Avtomobil)**

-Uşaqlar, bu tapmacanın açmasını kim bilir?

Əgər uşaqlar tapa bilmirsə, bir-iki sual verərək uşaqlara köməklik göstərir.

-Uşaqlar, maşın hansı nəqliyyat vasitəsidir? Biz onu harada sürürük?

Uşaqların cavabları dinlənilir.

**Dərketmə mərhələsi:** Uşaqlar nümunəyə baxır. Tərbiyəçi-müəllim plastilinləri hissələrə bölür, maşının hissələrini uşaqlara göstərərək düzəldir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimə baxaraq maşını düzəltməyə çalışırlar.

Uşaqların işləri təqdim olunur.

-Uşaqlar, nəqliyyat vasitələrini hava, su, quru, yeraltı təyinatına görə ayıraq. Onların adlarını deyək. Siz hansı nəqliyyat vasitəsində getmək istərdiniz?

## MƏŞĞƏLƏ 14

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Turp nağılı. Turp.

**Məqsəd:** Turp düzəldərkən uyğun rənglərdən istifadə edir.

Gigiyena qaydalarına əməl edir. Turp nağılına uyğun turp düzəldir.



**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək: əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağılları danışır.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, nağıletmə və s.

**Resurslar:** Rəngli plastilin, taxta lövhə, nümunə, nəm salfetlər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim "Turp nağılı"nı səsləndirir. Uşaqlara nağıla aid suallar verir.

**Dərketmə mərhələsi:** Uşaqlar, "Turp nağılı"ndakı babanın əkdiyi turpu plastilindən düzəldək.

Tərbiyəçi-müəllim nümunəni uşaqlara təqdim edir. Daha sonra uşaqlara necə düzəldəcəklərini hissə-hissə izah edir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar turp düzəldir. Uşaqlar "Turp nağılı"nı səhnələşdirirlər.

## MƏŞĞƏLƏ 15

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Dəniz tısbağası.

**Məqsəd:** Tısbağa haqqında məlumat verirlər. Tısbağa düzəldir.

Gigiyena qaydalarına əməl edir.

**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək: əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, oyuncaqlar, şəkillər, nəm salfetlər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, elə heyvanlar var ki, həm suda, həm quruda yaşayırlar. Kim deyər, onlar hansı heyvanlardır?

Bir tapmaca deyəcəm:

*Altı daşdı, daş deyil,*
*Üstü daşdı, daş deyil.*
*Heyvan kimi otlayır,*
*Heyvana yoldaş deyil.*
**(Tısbağa)**

-Göstərdiyim heyvanlardan hansına uyğun gəlir bu tapmaca?

Tərbiyəçi-müəllim bir neçə oyuncağı uşaqlara göstərir və bu tapmacanın hansı heyvana aid olduğunu soruşur.





**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara tısbağa haqqında suallar verir. Əlavə məlumatlar verir. Tərbiyəçi-müəllim nümunəsini uşaqlara təqdim edir. Uşaqlara tısbağanı necə düzəldəcəklərini izah edir.

**İdman dəqiqəsi:**

Bu – bülbül *(barmaqlarını bir-bir qatlayırlar)*
Bu – sərçə
Bu isə – qara qarğa
Bu – qəşəng quş qağayı,
Bu da yırtıcı qırğı,
Bunlar hansı quşdur? *(Hər iki qolunu yanlara açaraq quş kimi qanad çalır).*

**Tətbiqetmə mərhələsi:** Uşaqlar plastilini hissələrə bölür və tısbağa düzəldirlər. Tərbiyəçi-müəllim heyvan oyuncaqları uşaqların qarşısına qoyur. Quruda və suda yaşaya bilən heyvanları seçməyi təklif edir.

## MƏŞĞƏLƏ 16

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Zəhmətkeş arılar.

**Məqsəd:** Verilmiş nümunəyə uyğun arı yapır.

Təsvir alətlərindən təyinatına görə istifadə edir.

**İnteqrasiya: 2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağılları danışır.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, şəkillər, nəm salfet və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, sizə bir şəkil göstərəcəyəm. Görəsən, bu nəyin evidir belə? Tərbiyəçi-müəllim arı şanını uşaqlara göstərir və soruşur: Buna harada rast gəlmisiniz?

Uşaqlar cavablandırır.

-Arı burada nə edir? Yuva qurur, güllərin şirəsini toplayıb yuvaya bal toplayır.

-Arılar necə səs çıxardır? Bəs onlara necə həşəratlar deyirlər? Arılar nə rəngdədir?

**Dərketmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxırlar. Tərbiyəçi-müəllim onlara arını plastilindən necə yapmaq lazım olduğunu izah edir.

**İdman dəqiqəsi:** Barmaqlar.

*Baş barmaq,*
*Başala barmaq.*
*Uzun hacı,*

*Çöl turacı,*
*Xırdaca bacı.*
*Bu vurdu,*
*Bu tutdu.*
*Bu bişirdi,*
*Bu yedi,*
*Vay, buna qalmadı.*

(Bir-bir barmaqları göstərir).

**Tətbiqetmə mərhələsi:** Uşaqlar plastilindən arını düzəldirlər. Tərbiyəçi-müəllim uşaqların işlərini təqdim edir.

Tərbiyəçi-müəllim əvvəlcədən kağızdan düzəltmiş arı yuvasını lövhəyə yapışdırır.

-Uşaqlar, plastilindən yapdığınız arıları gətirin yuvasına yerləşdirək.

## MƏŞĞƏLƏ 17

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Yay meyvəsi. Gilas.



**Məqsəd:** Verilmiş nümunəyə uyğun gilas düzəldir. Gilası plastilindən düzəldərkən uyğun ardıcıllığa riayət edir.

Gigiyena qaydalarına əməl edir.

**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək: əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qrup işi, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, müzakirə, oyunlar.

**Resurslar:** Rəngli plastilinlər, taxta lövhə, nümunə, şəkil, nəm salfet və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, bildiyiniz meyvələrin adlarını deyin. Səbətin içində çoxlu meyvələr var (oyuncaqlar və ya şəkilli kartlar). Bu meyvələrin içindən yayda yetişən meyvələri seçib ayıracağıq. Bu meyvələrin içində gilas da var.

-Uşaqlar, gilasın meyvələri nə rəngdə olur? Onlar hansı fiqura bənzəyirlər?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

Uşaqlar yeni məlumatlar əldə edirlər.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Nümunəyə uyğun plastilindən gilas düzəldirlər.

"Dadından tanı" didaktik oyunu.

# QURAŞDIRMA

*(17 məşğələ)*

## MƏŞĞƏLƏ 1

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Rəngli kublardan şəhər qurmaq.

**Məqsəd:** Verilmiş nümunə və sxemlər əsasında rəngli kublardan şəhərcik qurur.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar və s.

**Resurslar:** Rəngli kublar, oyuncaq maşınlar, əşyalar, nümunə, şəkil və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlardan soruşur: -Uşaqlar, bizim Vətənimiz haradır? Bəs hansı şəhərdə (rayon, kənd) yaşayırıq? Uşaqlar, böyüyəndə əgər rayon, şəhər başçısı olsanız, yaşadığınız yeri necə görmək istərsiniz? Oranı necə qurardınız?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara çoxlu şəhər, rayon şəkilləri təsvir olunmuş nümunələr göstərir.

**İdman dəqiqəsi:** *Yığışdıq bizim evə*
*Dovşan, keçi, qaz, dəvə.*
*Qızıl xoruz çaldı saz,*
*Nəğmə oxudu "Naz-Naz".*

(Barmaqları bir-bir qatlayır).

**Tətbiqetmə mərhələsi:** Uşaqlar rəngli kublardan, maket ağaclardan, yol və oyuncaq maşınlardan şəhər küçələri qururlar. "Avtomobil" oyunu.

Tərbiyəçi-müəllim stullardan uzun yol düzəldir. Uşaqlar sanki avtomobildədir, şəhərciyin içindən keçirlər.

## MƏŞĞƏLƏ 2

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Tullantı materiallarından ağac.

**Məqsəd:** Verilmiş nümunə və sxemlər əsasında ağac düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar.

**Resurslar:** Rəngli kağızlar, tullantı kartonları, nümunə, şəkillər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, sizə bir tapmaca deyəcəm:

*Uzanar, ha uzanar,*
*Qollarından balalar.*

**(Ağaclar)**

Açmasını kim tapar? Uşaqlar, təbiət onsuz nəfəs ala bilməz, meyvə olmaz, biz yayda sərinliyə bilmərik.

Uşaqlar tapmacanın cavabını deyirlər.

**Dərketmə mərhələsi:** Uşaqlarla ağaclar haqqında müzakirə aparılır, onların yazda çiçək açdığından, yarpaqladığından, yayda meyvə verdiyindən, payızda yarpaqların saraldığından danışırlar. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar nümunəyə uyğun silindr kartonun üstünə ağac budaqlarını taxırlar.

Tərbiyəçi-müəllim fəsillərə uyğun ağac kartoçkaları paylayır. Tərbiyəçi-müəllim hansı fəslin adını çəksə, uşaqlar cəld həmin fəslə uyğun ağac təsvir olunmuş kartoçkanı qaldırmalıdırlar. Düz ağacı göstərən qalib gəlir.

## MƏŞĞƏLƏ 3

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Qoz qabıqlarından həşəratlar (parabüzən, arı və s.).

**Məqsəd:** Verilmiş nümunə və sxemlər əsasında həşəratlar düzəltmək.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, oyunlar, suallar və s.

**Resurslar:** Qoz qabıqları, plastilin, rəngli kağızlar, boya, nümunə və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, hansı həşəratları tanıyırsınız? Həşəratlar nə zaman, hansı fəsildə daha çox uçurlar? Hansı həşəratları sevirsiniz?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** "Bura bir quş qondu" - barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:**

Uşaqlar nümunəyə uyğun həşəratlar düzəldirlər. Tərbiyəçi-müəllim uşaqların işlərini təqdim edir. Onların işini dəyərləndirir.

Məşğələ yekunlaşır.

"Kölgəsini tap" didaktik oyunu. Uşaqlar həşəratların şəkillərini öz kölgəsi ilə birləşdirir.

## MƏŞĞƏLƏ 4

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Payız yarpaqlarından müxtəlif fiqurlar.

**Məqsəd:** Payız fəslinə uyğun rənglər seçir.

Verilmiş nümunə və sxemlər əsasında yarpaqlardan fiqurlar düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Payız yarpaqları, yapışqan, qayçı, nümunələr və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, gələrkən bir səbət saralmış yarpaq yığdım. Bu yarpaqların müxtəlif formaları var.

Uşaqlar, yarpaqlar nə zaman saralır? Elə ağac tanıyırsınızmı ki, heç saralmasın?

**Dərketmə mərhələsi:** Uşaqlar, mən saralmış yarpaqlardan formalarına uyğun əşyalar düzəltmişəm. Siz də nümunəyə uyğun kirpi, dovşan və s. düzəldə bilərsiniz.

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**Tətbiqetmə mərhələsi:**

Müxtəlif rəngdə, müxtəlif formada payız yarpaqları uşaqlara paylanır. Hər yarpağa uyğun rəngdə, formada, ölçüdə seçib, yığmaq. Uşaqlar yarpaqlardan müxtəlif fiqurlar düzəldir. Uşaqların işləri dəyərləndirilir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 5

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Kağızlardan rəngli şarlar.

**Məqsəd:** Şarların rənglərini, formasını deyir. Təsvir alətlərindən təyinatına görə istifadə edir.

Verilmiş nümunə və sxemlər əsasında şarlar düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, kley, şarlar, nümunə və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim soruşur: -Uşaqlar, hədiyyələri sevirsiniz? Bu gün mənim sizə hədiyyəm var. Tərbiyəçi-müəllim rəngarəng şarları uşaqlara göstərir. Şarları uşaqlara hədiyyə edir.

-Uşaqlar, əlinizdəki şarların rəngini və formasını mənə deyə bilərsiniz?

**Dərketmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsini izləyir. Tərbiyəçi-müəllim rəngli kağızları əlinin içinə yığır və yumrulayır. Kağızı dairə formasında düzəldərək şara yapışdırır. Şarın altına ip yapışdırır.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin köməkliyi ilə rəngli şarları düzəldirlər. -Uşaqlar, sizə hədiyyə etdiyim şarlardan bir oyun oynayacaqsınız.

Uşaqlar iki hissəyə bölünür. İki qrupdan bir nəfər start sözü ilə şarı deyilən məsafəyə kimi əl vurmadan başı ilə itələyərək aparmalıdır. Kim tez çatsa və yerə salmasa, o qrup qalibdir.

## MƏŞĞƏLƏ 6

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Gül düzəltmək.

**Məqsəd:** Sevdiyi güllər formalarını təsvir edir.

Verilmiş nümunə və sxemlər əsasında güllər düzəldir.

**İnteqrasiya: 2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**İş forması:** Qrup işi, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, qayçı, yapışqan, tullantı materialları, nümunə və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Uşaqlar, qrupumdakı dibçək güllərinə su vermək və qulluq etmək lazımdır. Birlikdə güllərimizə qulluq edək.

Uşaqlar tərbiyəçi-müəllimnin köməyi ilə güllərin torpağını yumşaldırlar, su verirlər.

**Dərketmə mərhələsi:** Uşaqlar, hansı gülləri tanıyırsınız? Hansı gülü daha çox sevirsiniz? Bitkilərin bizə nə kimi faydaları var?

Uşaqlar bildikləri məlumatları deyirlər.

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:**

Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə və təlimatına əsasən rəngli güllər düzəldirlər.

Didaktik oyun: "Uyğun olanı tap" oyununu tərbiyəçi-müəllim uşaqlara təqdim edir.

Güllər iki hissəyə bölünüb. Uşaqlar güllərin digər hissəsini tapıb birləşdirirlər.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 7

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Kartondan quş evi.

**Məqsəd:** Verilmiş nümunə və sxemlər əsasında quş evi düzəltmək.

Təsvir alətlərindən təyinatına görə istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar, tap-tapmaca.

**Resurslar:** Karton, yapışqan, ip, nümunə və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlardan soruşur: -Uşaqlar, bağçaya gələrkən bir balaca sərçə tapdım (tərbiyəçi-müəllim əlində oyuncaq quşu uşaqlara göstərir). Sərçəyə soyuq olmuşdu, bir az da ac idi.

Uşaqlar, belə bir fikrim var. Quşlarımız üçün evlər düzəldək, bağçamızın həyətindəki ağaclara qoyaq, dən verək.

**Dərketmə mərhələsi:** Uşaqlar öz fikirlərini bildirirlər.

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Nümunəyə baxaraq tərbiyəçi-müəllimin köməkliyi ilə uşaqlar quş evi düzəldirlər.

Tərbiyəçi-müəllim uşaqların işlərini rəğbətləndirir.

Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, düzəltdikləri quş damını bağçanın həyətindəki ağaclara yerləşdirsinlər və quşları yemləsinlər.

Uşaqlar həyətdə quşları yemləyirlər.

## MƏŞĞƏLƏ 8

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Müxtəlif materiallardan yolka oyuncaqları.

**Məqsəd:** Təsir alətlərindən təyinatına görə istifadə edir.

Verilmiş nümunə və sxem əsasında yolka oyuncaqları düzəldirlər.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar və s.

**Resurslar:** Müxtəlif materiallar, yapışqan, qayçı, nümunə və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlardan soruşur: -Uşaqlar, qış fəslində hansı bayramı qeyd edirik? Yeni ildə nə bəzəyirik? Yolkanı nə ilə bəzəyirik?

Uşaqlar, qrup otağımızın yolkası var. Lakin oyuncaqlar ilə bəzənməyib. Şaxta baba bizə qonaq gələrsə çox inciyər. Deyər ki, məni gözləmirdiniz? Yolkanı niyə bəzəməmisiniz?

**Dərketmə mərhələsi:**

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

Tərbiyəçi-müəllimin uşaqlara göstərdiyi nümunələr üzrə iş aparılır.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin payladığı materiallardan oyuncaq düzəldirlər.

Tərbiyəçi-müəllim uşaqların işlərini rəğbətləndirir.

Tərbiyəçi-müəllim təklif edir ki, uşaqlar düzəltdikləri oyuncaqlarla yolkanı bəzəsinlər və yeni ilə hazırlıq görsünlər. Uşaqlar oyuncaqlarla yolkanı bəzəyirlər.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 9

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Salfetdən hazırlanmış qış mənzərəsi.

**Məqsəd:** Təsvir alətlərindən təyinatına görə istifadə edir. Verilmiş nümunə və sxem əsasında qış mənzərəsi hazırlayır.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, oyunlar və s.

**Resurslar:** Salfetlər, karton, yapışqan, qayçı və s.

### Məşğələnin gedişi

**Motivasiya:** *Həyətdə dağdır,*
*Pambıqdan ağdır,*
*Evə gələr, suya dönər.*
**(Qar)**

-Uşaqlar, bu tapmacanın açmasını kim tapar? Uşaqlar, qar nə zaman yağır? Qar nə rəngdədir? Qar yağarkən təbiətdə mənzərə necə olur?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə uyğun salfetkadan qar dənəcikləri düzəldərək qış mənzərəsi düzəldirlər.

Tərbiyəçi-müəllim uşaqlara qış fəslinə aid tapmacalar deyir. Uşaqlar tapmacanın açmasını tapmağa çalışırlar.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 10

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Hədiyyə qutusu.

**Məqsəd:** Verilmiş nümunə və sxemə uyğun hədiyyə qutusu düzəldir. Təsvir alətlərindən təyinatına görə istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Qrup işi, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Karton qutu, bəzəklər, yapışqan, qayçı və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, qarşıdan 8 Mart Beynəlxalq Qadınlar Günü gəlir. Həmin gün anamızı təbrik etmək üçün istədiyiniz hədiyyəni verəcəksiniz. O hədiyyələri qoymaq üçün hədiyyə qutusu düzəltməliyik.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsi və göstərişi ilə hədiyyə qutusunu bəzəyirlər. Uşaqlar düzəltdikləri hədiyyə qutusuna plastilindən düzəlmiş gülləri qoyurlar. Tərbiyəçi-müəllim onlara təklif edir ki, hazırladıqları hədiyyələri analarına hədiyyə verib, onları təbrik etsinlər.

## MƏŞĞƏLƏ 11

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Kosa papağı.

**Məqsəd:** Novruz atributlarını sadalayır.

Təsvir alətlərindən təyinatına görə istifadə edir.

Verilmiş nümunəyə uyğun kosa papağı düzəldir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**4.1.2.** Hərəkətli oyun, əyləncə zamanı emosiya, əhval-ruhiyyə (sevinc, təəccüb və s.) nümayiş etdirir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar, tap-tapmaca.

**Resurslar:** Kağız, karton, rəngli kağızlar, qayçı, yapışqan, nümunə və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim kosa mahnısını uşaqlara dinlədir, uşaqlar şənlənir. Kosa mahnısını birlikdə oxuyurlar.

Tərbiyəçi-müəllim soruşur: Uşaqlar, kosa və keçəl nə zaman bizə qonaq gəlir? Kosa hansı bayramın xəbərçisidir? Novruz bayramı hansı fəsildə qeyd olunur?

**Dərketmə mərhələsi:** Uşaqlar, kosa papaqları düzəldək. Tərbiyəçi-müəllim kosa papağını necə düzəltməyi uşaqlara öyrədir. Uşaqlar papağın hansı fiqura oxşadığını, formasını deyirlər.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin köməkliyi ilə uşaqlar papaq düzəldirlər. Uşaqlar düzəltdikləri kosa papaqlarını başlarına taxırlar. Qrup otağında kosanın sözlərini deyib əylənirlər.

## MƏŞĞƏLƏ 12

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Tullantı materiallarından tank.

**Məqsəd:** Təsvir alətlərindən təyinatına görə istifadə edir.

Verilmiş nümunəyə uyğun tank düzəldir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.
**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.
**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.
**Resurslar:** Boş şüşələr, kağız, karton, kley və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara videorolik izlədir. Cəsur əsgərlərimizin şücaətindən danışır. Müharibə vaxtı nə qədər qənimət tank əldə etdiklərini uşaqlara göstərir. Uşaqlarla sual-cavab edir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim soruşur: "Qənimətlər parkı"na kim gəzintiyə gedib? Orada çoxlu tanklar var.

Bu gün biz tullantı materiallarından tank düzəldəcəyik.

Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxırlar.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin yardımı ilə tank düzəldirlər. Uşaqlar əsgər marşı oxuyur. Düzəltdikləri tankları qrup otağındakı guşəyə yığırlar.

Uşaqlar torpaqlarımız uğrunda canından keçmiş əsgərlərimizi bir dəqiqəlik sükutla yad edirlər.

## MƏŞĞƏLƏ 13

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Qurbağa.

**Məqsəd:** Verilmiş nümunə və sxemə uyğun qurbağa düzəldir.

Təsvir alətlərindən təyinatına görə istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.
**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.
**Üsullar:** Əqli hücum, suallar, didaktik oyun, tap-tapmaca.
**Resurslar:** Rəngli kağızlar, plastilin, kley, qayçı və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** *Sularda yatar,* *Hoppanar-düşər,*
*Quruda yatar.* *Ordları şişər.*

**(Qurbağa)**

-Uşaqlar, bu tapmacanın açması nədir? Kim tapar? Həm suda, həm quruda yaşayan heyvandır. Quruldayır.

Uşaqlar hərə öz fikrini deyir.

Tərbiyəçi-müəllim uşaqlardan qurbağa haqqında bildiklərini soruşur.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim qurbağa haqqında əlavə məlumatlar verir. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Nümunəyə uyğun uşaqlar qurbağa düzəldirlər. Uşaqlara şəkilli kartların içindən həm quruda, həm suda yaşayan heyvanları seçib tapmaları və adlarını demələri təklif olunur.

Uşaqlar rəğbətləndirilir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 14

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Kibrit qutularından robot.

**Məqsəd:** Təsvir alətlərindən təyinatına görə istifadə edir.

Verilmiş nümunə və sxemə uyğun robot düzəltmək.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Kibrit qutuları, yapışqan, qayçı, nümunə və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlarda müxtəlif oyuncaqlarla oynamağı təklif edir. Uşaqlardan soruşur: -Oyuncaqların içində ən çox sevdiyiniz oyuncaq hansı oldu? Hansı oyuncağı düzəltmək istərdiniz?

Robot düzəltmək istərdiniz?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara nümunəsini göstərir. Təklif edir ki, uşaqlar robotu birlikdə, kollektiv şəkildə düzəldək. Uşaqlar stolun ətrafına yığışır, uşaqların bir hissəsi robotun gövdəsini, bir hissəsi qollarını və ayaqlarını düzəldib birləşdirirlər.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim robot təsvir olunmuş şəklin kəsilmiş hissələrini uşaqların qarşısına qoyur və nümunəyə baxaraq şəkli yığmağı təklif edir.

## MƏŞĞƏLƏ 15

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Qələm qabı.

**Məqsəd:** Təsir alətlərini təyinatına görə istifadə edir.

Verilmiş nümunə və sxemə uyğun qələm qabı düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Plastik şüşələr, rəngli kağızlar, müxtəlif bəzəklər, yapışqan və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, şəkil çəkməyi sevirsiniz? Şəkil çəkərkən karandaşlarınızı hara qoyursunuz? Qələm və karandaşlarımız dağılmasın və itməsin deyə qələm qabına ehtiyacımız olur.

**Dərketmə mərhələsi:** Qrup otağımızda qələm qablarımız azdır. Qələm qabı düzəldək və qələmləri onun içinə yığaq.

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar uyğun materialları seçir.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** "Bura bir quş qondu" - barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxır. Tərbiyəçi-müəllimin yardımı ilə qələm qabı düzəldirlər. İstəyə uyğun bəzəyirlər.

Tərbiyəçi-müəllim təklif edir ki, düzəltdikləri qələm qablarına öz qələmlərini yığsınlar. Uşaqlar öz qələmlərini düzəltdikləri qablara yığır.

Tərbiyəçi-müəllim uşaqları rəğbətləndirir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 16

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Rəngli çöplərdən müxtəlif əşyalar qurmaq.

**Məqsəd:** Təsir alətlərindən təyinatına görə istifadə edir.

Verilmiş nümunəyə uyğun verilmiş əşyaları düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar.

**Resurslar:** Rəngli çubuqlar, şəkillər, nümunə və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlara ev fiquru göstərir və soruşur:
-Uşaqlar, evin düzəlməsi üçün hansı fiqurlardan istifadə edilib? Hansı rəngdən istifadə ediblər?

Ev qurarkən başqa fiqurlardan istifadə etmək olar? Evin həyətini nə ilə bəzəmək olar?

Taxta hasarla, şam ağacları ilə və s.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara rəngli çöplər paylayır. Nümunə olaraq müxtəlif fiqurlar göstərir. Uşaqlar sevdikləri əşyanı rəngli çöplərdən istifadə edərək qururlar.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Quraşdırdığınız fiqurları birləşdirərək bir mənzərə alındıraq.

Uşaqlar böyük ağ kağızın və ya stolun üstündə düzəltdikləri fiqurları birləşdirirlər. Ev, ağac, hasar, ot, gül və s.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 17

**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarığını nümayiş etdirir.

**Mövzu:** Qatlama yolu ilə tülkü.

**Məqsəd:** Təsir alətlərindən təyinatına görə istifadə edir.

Verilmiş nümunəyə uyğun qatlama yolu ilə tülkü düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**İş forması:** Fərdi iş, qruplarla iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, nümunə, şəkil və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim tülkü ilə qoğalın söhbətini səhnələşdirir.

-Uşaqlar, tülkü necə heyvandır? Tülkü nə rəngdə olur?

**Dərketmə mərhələsi:** Uşaqlar nümunəyə baxırlar. Tərbiyəçi-müəllim tülkünü qatlama yolu ilə necə düzəldəcəklərini öyrədir. Uşaqlar tərbiyəçi-müəllimin yardımı ilə tülkünü qatlayaraq düzəldirlər.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim heyvan kartlarının içindən ev və çöl heyvanlarını seçib ayırmalarını təklif edir.

Məşğələ yekunlaşır.

# KƏSİB-YAPIŞDIRMA

**(17 məşğələ)**

## MƏŞĞƏLƏ 1

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Rəngli güllər.

**Məqsəd:** Sevdiyi gülləri seçir. Kəsilmiş formalarını birləşdirib yapışdırır. Alətləri təyinatına uyğun istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, qayçı, yapışqan, nümunə, şəkillər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, bu gün dələnin ad günüdür. Dovşan dələnin ad gününə getmək istəyir. Gəlin dovşana yardım edək, ona rəngli kağızlardan güllər düzəldək verək. Dovşan dələyə rəngli gülləri hədiyyə aparsın. Uşaqlar, heç gül adı bilirsiniz? Hansı gülləri tanıyırsınız? Kim hansı rəngdə gülü kəsib yapışdırmaq istəyir?

**Dərketmə mərhələsi:** Uşaqlar, güllər harada bitir? Kimin həyətində, evində gül bitir?

Tərbiyəçi-müəllim öz nümunəsini uşaqlara təqdim edir. Hazır kəsilmiş gül, yarpaq, budaqları uşaqlara paylayır. Onlar nümunəyə uyğun gülləri yapışdırırlar. Uşaqların işləri dəyərləndirilir.

**İdman dəqiqəsi:** *Bu, lalə,*
*Bu, qızılgül,*
*Bu isə yasəməndir.*
*Bu gözəl bir nərgiz,*
*Bu da çobanyastığı,*
*Bunların hamısı güldür.*

(Barmaqlarını bir-bir qatlayırlar, sanki gül dəstəsini yığır əllərinə).

**Tətbiqetmə mərhələsi:** Uşaqlar yapışdırdıqları gülləri dovşanın qarşısına yığırlar. Tərbiyəçi-müəllim dovşanın adından uşaqlara təşəkkürünü bildirir.

## MƏŞĞƏLƏ 2

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Alma ağacı.

**Məqsəd:** Alma şəkli kəsib-yapışdırmaq üçün ardıcıllığı müəyyənləşdirir. Təsir alətlərini təyinatına görə istifadə edir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Qrup işi, kollektiv iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, qayçı, yapışqan, nümunə, şəkil və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, payız fəslidir. Payızda meyvə yığımı başlayır. Alma, heyva, üzüm, xurma və s. Hansı payız meyvələrini sevirsiniz? Uşaqlar, almalar hansı rəngdə olur? Alma hansı formada olur?

**Dərketmə mərhələsi:** Uşaqlar, rəngli kağızlardan dairəvi formada almalar kəsək və hazırlanmış ağaca yapışdıraq.

Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxırlar. Nümunəyə uyğun kəsilmiş almaları ağacın üstünə yapışdırırlar.

**İdman dəqiqəsi:** "Şən dairələr" didaktik oyunu.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara üstündə çoxlu meyvələr təsvir olunmuş kartlar paylayır. Tərbiyəçi-müəllim uşağın birini oyuna dəvət edir. Tərbiyəçi-müəllim uşağa bir meyvə təsvir olunmuş kartı göstərir. Uşaq əlindəki kartların içində həmin meyvə şəkli varsa, tez tərbiyəçi-müəllimə göstərir və adını deyir. Əgər düz cavabdırsa, qalib gəlir.

## MƏŞĞƏLƏ 3

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Payızda yarpaqlar.

**Məqsəd:** Payız fəsli haqqında məlumat verir. Payız fəslinə uyğun rəngləri seçir. Payız yarpaqlarını kəsib-yapışdırmaq üçün ardıcıllığa riayət edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**İş forması:** Qrup işi, kollektiv iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, qayçı, yapışqan, nümunə, şəkillər və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlarla birlikdə bağçanın həyətində səbətə payız yarpaqları yığırlar. Uşaqlar yarpaqları müşahidə edirlər.

**Dərketmə mərhələsi:** Uşaqlar, payız yarpaqları nə rəngdə olurlar? Uşaqlar, rəngli kağızlardan payız rənglərini seçək və yarpaqları kəsib yapışdıraq. Tərbiyəçi-müəllimin yardımı ilə yarpaqlar kəsilir.

**İdman dəqiqəsi:** Uşaqlar, külək əsir (uşaqlar qollarını o yana-bu yana edirlər). Yağış damcı-damcı yağır (barmaqlarını ovuclarına vururlar). İldırım çaxır (əllərini bir-birinə vururlar).

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim bir ağac budağını qrupun ortasına qoyur və deyir: Uşaqlar, kəsdiyimiz payız yarpaqlarını ağac budağına yapışdıraq və qrupumuza qoyaq.

## MƏŞĞƏLƏ 4

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Üç rəngin sehri. Bayraq.

**Məqsəd:** Bayraq haqqında məlumat verir. Bayrağın rənglərini tanıyır. Bayrağı kəsib-yapışdırmaq üçün lazımi ardıcıllığı müəyyənləşdirir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, qruplarla iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim vətənimiz, rəmzlərimiz, bayrağımız haqqında suallar verir. Uşaqlardan bayraq haqqında bildikləri şeiri soruşur.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən bayraq rənglərini seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:**

1. Ölkə bayraqlarının və gerblərinin içindən Azərbaycan bayrağını və gerbini tapır.
2. Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə uyğun bayrağın rənglərini tərbiyəçi-müəllimin köməyi ilə kəsib-yapışdırırlar.

## MƏŞĞƏLƏ 5

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Pişik.

**Məqsəd:** Pişik hazırlamaq üçün lazımi ardıcıllığı müəyyənləşdirir. Pişik aplikasiyası düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Qrup işi, kollektiv iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, oyuncaq və s.

### Məşğələnin gedişi

**Motivasiya:** *Ovun alsan, mırıldar,*
*Sığallasan, xoruldar.*
**(Pişik)**

-Uşaqlar, bu tapmacanın açmasını kim tapar? Ev heyvanıdır, süd ilə bəslənir.

Uşaqlar tapmacanın açmasını deyirlər.

**Dərketmə mərhələsi:** Uşaqlar, pişik haqqında kim nə bilir? Pişiyi kim sevir?

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən pişik rəngində olan rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxır. Rəngli kağızlardan pişik fiquru düzəldirlər.

Tərbiyəçi-müəllim uşaqların işlərini dəyərləndirir.

*Oyun:* Tərbiyəçi-müəllim beş ev heyvanının şəklini lövhəyə düzür, uşaqlara şəkillərə diqqətlə baxmalarını və adlarını demələrini istəyir. Daha sonra gözlərini əlləri ilə bağlamalarını deyir. Heyvan şəkillərindən birini götürür və əllərini gözlərinin üstündən qaldırmasını deyir. Uşaqlardan hansı heyvanı götürdüyünü soruşur.

Diqqət oyununu bir-iki dəfə heyvanları dəyişərək uşaqlarla oynayır.

## MƏŞĞƏLƏ 6

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Tərəvəzlər.

**Məqsəd:** Tərəvəzlərin rənglərinə uyğun kağız seçir.

Kəsilmiş formalardan istifadə etməklə tərəvəzlər düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyun və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkil və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, siz evdə valideynlərinizə köməklik göstərirsiniz? Uşaqlar, dovşanın anası yemək bişirmək istəyir. Bala dovşan anasına yemək bişirməkdə köməklik göstərmək istəyir. Ana dovşan bala dovşanı tərəvəz almağa göndərib. Dovşan tərəvəzləri tanımır. Gəlin birlikdə dovşana tərəvəzlər almaqda yardımçı olaq.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim tərəvəzlər haqqında müxtəlif suallar verir. Uşaqlar bildiklərini cavablandırırlar.

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən sevdiyiniz tərəvəz rəngində olan rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin nümunəsinə uyğun sevdikləri tərəvəzləri kəsib-yapışdırırlar. Tərbiyəçi-müəllimin köməkliyi ilə qayçıdan istifadə edirlər.

Uşaqların işləri təqdim olunur.

"Cümlə fikirləş" oyunu. Tərbiyəçi-müəllim hər uşağa bir tərəvəz adı deyir. Uşaq 2-3 sözdən ibarət cümlə deyir.

## MƏŞĞƏLƏ 7

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Rəngli şərf və papaq.

**Məqsəd:** Şərf və papağı rəngli kağızlardan kəsərkən lazımi ardıcıllığı müəyyənləşdirir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Fərdi iş, qruplarla iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, oyunlar, suallar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkillər və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, ildə neçə fəsil var? İndi hansı fəsildir? Qış fəslində necə geyinmək lazımdır? Uşaqlar, Qırmızıpapağın nənəsi sizə şərf və papaq toxumaq istəyir. Ancaq bilmir ki, siz hansı rəngdə və necə bəzəkli şərf və papaq saxlayırsınız?

Nənəmizə kömək edək. Sevdiyiniz rəngdə şərf və papaq kəsib-yapışdıraq. Nənə də sizin kəsib-yapışdırdığınız rəngdə şərf və papaq toxusun.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim öz nümunəsini uşaqlara təqdim edir.

- Uşaqlar, rəngli kağızların içərisindən istədiyiniz rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

Daha sonra necə kəsib-yapışdıracaqlarını uşaqlara göstərir. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar şərf və papaq kəsib yapışdırır. Uşaqlar öz əl işlərini tərbiyəçi-müəllimə təqdim edirlər. -Uşaqlar, kəsib-yapışdırdığınız şərf və papağın şəkillərini yığaq səbətin içinə, Qırmızı Papaq aparıb nənəsinə versin. Uşaqlar yapışdırdıqları şəkilləri səbətə yığırlar.

## MƏŞĞƏLƏ 8

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Qardan adam.

**Məqsəd:** Qar haqqında məlumatlara uyğun rəng seçir. Qardan adam kəsib-yapışdırarkən alətlərdən düzgün istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**İş forması:** Qruplarla iş, kollektiv iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkil və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, qış fəsli haqqında nə deyə bilərsiniz? Qış fəslində ən çox sevdiyiniz təbiət hadisəsi hansıdır? Qar yağarkən nə etmək istəyirsiniz? Elə təsəvvür edək ki, qar yağıb. Qardan adam kəsib yapışdıraq. Qardan adam hansı həndəsi fiqurun formasından düzəlir?

**Dərketmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxır. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən qar adamı rəngində olan rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Barmaqlar üçün gimnastika dəqiqəsi.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin köməyi ilə qayçıdan istifadə edərək ağ kağızdan dairələr kəsirlər. Onları qardan adam formasında yapışdırırlar.

-Uşaqlar, qış fəslinə aid şəkilləri seçək, qardan adamın ətrafına düzək.

## MƏŞĞƏLƏ 9

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Bəzəkli yolka.

**Məqsəd:** Düzgün rəngləri seçir. Yolka ağacını kəsib-yapışdırmaq üçün lazımi ardıcıllığı müəyyənləşdirir.

Bəzəkli yolka düzəldir.

**İnteqrasiya: 2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkillər və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, qrupumuzda yolka var, ancaq bəzənməyib. Yeni ildə şaxta baba gələrsə, məyus qalar. Gəlin yolkamızı oyuncaqlarla bəzəyək.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.
- Uşaqlar, rəngli kağızların içərisindən yolka rəngində olan rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin nümunəsinə uyğun uşaqlar üçbucaqlar kəsir. Üçbucaqları üst-üstə yapışdırırlar. Daha sonra rəngli kağızlardan kəsilmiş oyuncaqları onun üstünə yapışdırırlar. Tərbiyəçi-müəllim uşaqların əl işlərini rəğbətləndirir.

Uşaqlar, gəlin əl-ələ verək, "Yolka" mahnısı ilə yolkanın ətrafında şənlənək.

## MƏŞĞƏLƏ 10

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Rəngli çətir.

**Məqsəd:** Çətir düzəldərkən sevdiyi rənglərdən istifadə edir. Alətləri təyinatına görə istifadə edir. Rəngli kağızdan çətir düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyun və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkil və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, yaz fəsli haqqında kim məlumat verər? Uşaqlar, lövhədə çoxlu şəkillər var. Siz bu şəkillərin içindən yaz fəslinə aid kartları seçib adlarını deyin.

-Uşaqlar, çöldə yağış yağarkən biz hansı əşyanı götürməliyik?

**Dərketmə mərhələsi:**

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən sevdiyiniz rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

Uşaqlar, rəngarəng çətir düzəldək.

**İdman dəqiqəsi:** Barmaqların gimnastikası.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunəsini təqdim edir. Kəsilmiş rəngləri uşaqlar birləşdirərək yapışdırırlar. Sonda rəngarəng çətirlər alınır.

Tərbiyəçi-müəllim uşaqların işlərini təqdim edir.

*Rəngli quş qanadın açdı,*
*Başımın üstünə sərdi.*

**(Çətir)**

-Tapmacanın cavabını bu şəkillərin içindən kim tapar?

## MƏŞĞƏLƏ 11

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Bəzəkli açıqca.

**Məqsəd:** Alətlərdən təyinatına görə istifadə edir.

Bəzəkli açıqca kəsib-yapışdırarkən sevdiyi rənglərdən istifadə edir. 8 mart açıqcası düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkillər və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, analarımızın, nənələrimizin qadınlar bayramında onları necə təbrik edirsiniz? Qadınlar gününə aid uşaqlar şeir dinləyirlər. -Uşaqlar, birlikdə gözəl açıqcalar düzəldək və analarımızı, nənələrimizi evə gedərkən təbrik edək.

**Dərketmə mərhələsi:**

Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən ananızın sevdiyi rəngləri seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** *Gəzdik biz bağı,*
*Yığdıq gülləri.*
*Qızılgülü, Laləni,*
*Yasəməni.*
*Biz toplayıb bunları,*
*Anamıza güllər apardıq.*

(Qolları açıb bağlayaraq, barmaqları bir-bir büküb oynadırlar).

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxırlar. Tərbiyəçi-müəllim uşaqlara sevdiyi rəngdə rəngli kartonları və bəzəkləri götürüb, onu izləmələrini deyir. Uşaqlar tərbiyəçi-müəllimin təqdim etdiyi hazır kəsilmiş fiqurlardan açıqca hazırlayırlar.

Uşaqlar sonra "Ana" haqqında mahnı oxuyurlar.

## MƏŞĞƏLƏ 12

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Çiçək açmış ağac.

**Məqsəd:** Yaz fəsli haqqında qısa məlumat verir. Alətlərdən təyinatına görə istifadə edir. Hazır və kəsdiyi güllərdən çiçək açmış ağac düzəldir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**İş forması:** Qrup işi, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkil və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, bizə bir məktub gəlib. Oxuyaq görək, kimdəndir. Tərbiyəçi-müəllim məktubu açır və oradan kosa ilə keçəlin şəkli çıxır.

Arasında yazı var, uşaqlar, görək kosa bizə nə yazıb. Əziz uşaqlar, salam. Mən sizə qonaq gəlmək istəyirəm, yalnız yazın gəlişini, ağacların çiçək açmasını gözləyirəm. Ağaclar çiçək açan kimi gələcəyik. Bizi gözləyin.

**Dərketmə mərhələsi:** Uşaqlar, ağaclar hansı fəsildə çiçək açır? Kosa ilə keçəl hansı bayramın atributlarıdır? Uşaqlar, çiçək açmış ağaclar kəsib yapışdıraq. Qoy kosa və keçəl tez gəlsinlər. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə uyğun çiçək açmış ağac kəsib yapışdırırlar. Onlar qayçıdan, yapışqandan təlimata uyğun istifadə edirlər.

-Uşaqlar, düzəltdiyimiz ağacları bağçanın şüşələrinə yapışdıraq, qrup otağımızı bəzəyək. Bəlkə, kosa ilə keçəl onu görüb, bağçamıza tez gələr.

## MƏŞĞƏLƏ 13

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Dənizdə gəmi.

**Məqsəd:** Su nəqliyyat vasitəsi haqqında hissələri sadalayır. Alətlərdən təyinatına görə istifadə edir. Gəminin hissələrini kəsib-yapışdırır.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.2.2.** Kollektiv əməkdə (qrup otağının səliqəyə salınması, həyətyanı sahədə işləmək və s.) iştirak edir və tapşırıqları yerinə yetirir.

**İş forması:** Kollektiv iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, gəmi kapitanının bu gün doğum günüdür. Bir böyük gəmi düzəldək, gəmi kapitanına hədiyyə edək.

-Uşaqlar, gəmi hansı nəqliyyat vasitəsidir? Onu quruda və ya havada idarə etmək olar? Gəmini kimlər idarə edir? Gəmini harada idarə edirlər?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim öz nümunəsini uşaqlara təqdim edir: -Uşaqlar, mən bu gün sizə təklif etmək istəyirəm ki, hamımız birlikdə böyük bir gəmi kəsib yapışdıraq. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar kollektiv şəkildə böyük bir gəmi kəsib yapışdırırlar.

Tərbiyəçi-müəllim böyük qrupun uşaqlarından birini gəmi kapitanı kimi geyindirir və qrupa dəvət edir. -Uşaqlar, bu gün kapitanın ad günüdür, gəlin birlikdə onu təbrik edək və hədiyyəsini təqdim edək.

## MƏŞĞƏLƏ 14

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Kök sevən dovşan.

**Məqsəd:** Müxtəlif kəsmə üsullardan istifadə edir. Dovşan haqqında danışır. Hazır və kəsdiyi kağızlardan dovşan düzəldir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, müzakirə, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə şəkillər və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, burda səbətin içində kök, kələm var. Kim deyər, bu tərəvəzləri hansı heyvan çox sevir?

*Kolları gəzər pusa-pusa,*
*Qıçları uzun, qolu qısa.*

**(Dovşan)**

-Bu tapmacanın açmasını kim tapar? -Dovşan.

-Uşaqlar, dovşanı kim təsvir edər mənə? Dovşanı kim sevir? Dovşanı kim görüb?

**Dərketmə mərhələsi:** Uşaqlar, dovşanlar düzəldək. Bu kökləri onlara hədiyyə edək. Tərbiyəçi-müəllimin nümunəsinə uşaqlar baxırlar. Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** "Barmaqlar" oyunu.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllimin köməkliyi və göstərişi ilə hazır kəsilmiş hissələri bir-birinə birləşdirərək dovşan düzəldirlər.

"Dovşan və qurd" oyunu.

## MƏŞĞƏLƏ 15

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** İşıqlar.

**Məqsəd:** Hazır və kəsdiyi kağızlardan işıqlar düzəldir. Müxtəlif kəsmə üsullardan istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, suallar, didaktik oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə şəkillər, maket və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, siz yolu keçərkən nələrə diqqət edirsiniz? Yol hərəkəti qaydalarını bilirsinizmi? Yolu keçərkən ən əsası haradan istifadə edirsiniz?

Tərbiyəçi-müəllim qrup otağına işıqlar və üst keçid işarələri qoyur.

-Uşaqlar, gəlin yolu keçə bilməyən uşaqlara yolu keçməkdə kömək edək.

Uşaqlar işıqfor haqqında məlumatlandırılır.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə baxırlar. Tərbiyəçi-müəllimin köməkliyi ilə işıqfor kəsib yapışdırırlar. Tərbiyəçi-müəllim işıqların rəngini və formasını uşaqlardan soruşur. Uşaqlar düzəltdiyi işıqforu təqdim edirlər.

"İşıqfor" mahnısını tərbiyəçi-müəllim uşaqlara dinlədir, birlikdə oxuyurlar.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 16

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Parabüzən.

**Məqsəd:** Parabüzənin rəngini seçir. Uyğun rənglərdən istifadə edərək parabüzən kəsib-yapışdırır. Alətlərdən qaydasına uyğun istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, qruplarla iş.
**Üsullar:** Əqli hücum, suallar, oyunlar və s.
**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkil və s.

**Məşğələnin gedişi**

**Aktuallaşma:** Uşaqlar, hansı həşəratları tanıyırsınız? Ən çox hansı fəsildə həşəratları görürsünüz? Ən çox hansı həşəratları sevirsiniz? Üstü xallı həşərat hansıdır?

Uşaqlar tərbiyəçi-müəllimin suallarını cavablandırmağa çalışırlar. Tərbiyəçi-müəllim həşəratların şəkillərini göstərir. Parabüzənin qırmızı, qara xallı olduğunu uşaqlara göstərir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:** Bura bir quş qondu.
*(ovucun içini göstərmək)*
Qağ elədi,
Yumurtasın çağ elədi.
Biri bişirdi,
*(baş barmağını qatladı)*
Biri düşürdü.
*(şəhadət barmağını qatladı)*
Biri yedi *(orta barmağını qatladı),*
Biri içdi *(adsız barmağını qatladı),*
Bili-biliyə qalmadı,
*(kiçik barmağını göstərmək)*
O da pırr elədi uçdu.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar tərbiyəçi-müəllimin nümunəsinə uyğun parabüzəni kəsib-düzəltməyə çalışırlar. Tərbiyəçi-müəllimin yardımı ilə uşaqlar parabüzəni yapışdırırlar.

Tərbiyəçi-müəllim uşaqların işlərini təqdim edir.

Uşaqlar qruplara bölünür. Şəkillərin içindən həşəratları seçib göstərirlər. Hansı həşəratın adını bilirsə, deməlidir.

Məşğələ yekunlaşdırılır.

## MƏŞĞƏLƏ 17

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**Mövzu:** Sevdiyim oyuncaq.

**Məqsəd:** Sevdiyi oyuncağı haqqında sadə cümlələrlə məlumat verir. Sevdiyi oyuncağı kəsib-yapışdırır. Alətlərdən qaydasına uyğun istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**4.1.1.** Sadə ünsiyyət qaydalarına əməl edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, müzakirə, oyunlar və s.

**Resurslar:** Rəngli kağızlar, yapışqan, qayçı, nümunə, şəkillər, oyuncaqlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim qrup otağındakı oyuncaqları səbətə yığır. Uşaqlardan hansı oyuncağı oynatmaq istəyirlərsə, onu götürmələrini deyir.

-Uşaqlar, oyuncaqları necə oynatmaq lazımdır? Oyuncaqları dostları, yoldaşları ilə paylaşmağın gözəl olduğunu deyir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nümunə göstərərək izah edir.

- Uşaqlar, rəngli kağızların içərisindən uyğun rəngi seçək.
- Hansı alətlərdən istifadə etməliyik?
- İş masamızı hazırlayaq.
- Təhlükəsizlik qaydalarını sadalayaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, kim hansı oyuncağı sevirsə, həmin oyuncağa uyğun rəngli kağızdan fiqur kəsib-yapışdıracaqdır. Tərbiyəçi-müəllimin köməyi ilə uşaqlar fiqurları kəsib-yapışdırırlar.

Tərbiyəçi-müəllim uşaqların işlərini təqdim edir.

Uşaqlar sevdiyi oyuncaqları məşğələnin sonunda oynadırlar.

Məşğələni sonlandırırlar.

Nərgiz NƏŞRİYYATI

**Direktor: Hidayət Musabəyli**
**Nəşriyyat redaktorları:** Soltan Orucoğlu, Leyla Namazova
**Korrektor:** Yasəmən İsmayılova
**Dizayn:** Naibə Səfərova
**Çapa imzalanmışdır:** 15.12.2023
**Kağız formatı:** 70x100/32/1
**Həcmi:** 8,0 çap vərəqi
**Tiraj:** 3000 nüsxə, sifariş: 1157
**Ünvan:** 8-ci km qəsəbəsi, R.Rüstəmov küç.36
**Nəşriyyatla əlaqə telefonları:**
012-520-32-02
050-738-37-22
055-923-25-35

**nesriyyat.nergiz@mail.ru**

*Nəşriyyat və müəllif hüquqları qanunla ("Nəşriyyat işi haqqında" qanun) qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron (PDF) informasiya vasitələri ilə yaymaq qadağandır!*

*Qiyməti: 7m.50 qəp.*